Günəş Şərqdən doğur!

❒ № 124 (5405), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 15 iyul 2021-ci il (cümə axşamı)



## Dünya üçüncü dalğanın başlanğıcındadır

"Delta" variantı artıq 110-dan çox ölkədə aşkarlanıb

(Səh.5)

# Ermənistan yenə atəşlə oynayır

## Şuşa və Naxçıvandakı mövqelərimiz atəşə tutulub

Son günlər Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisində qanunsuz erməni silahlı dəstələri tərəfindən Ordumuza qarşı atəş açılması halları intensivləşib. İyulun 14-də Azərbaycan ərazisində qanunsuz yerləşmiş erməni silahlı dəstələri Şuşa şəhəri ətrafındakı mövqelərimizi pulemyot və avtomatlardan atəşə tutublar.

Elə həmin gün Ermənistan silahlı birləşmələri Naxçıvanın Sədərək rayonu istiqamətində yerləşən Ordumuzun mövqelərinə müxtəlif çaplı silahlardan atəş açıblar. Nəticədə Azərbaycan Ordusunun hərbi qulluqçusu Mərdanlı İbadulla Məhsud oğlu yaralanıb.



(səh.3)



## "Ermənistan sülh müqaviləsi imzalamağa hazır deyil"

Prezident: "Ancaq yaxşı fikirləşsinlər, sonra gec ola bilər"

**"Müharibədə itkilərimiz daha da çox ola bilərdi".**

Bunu Prezident İlham Əliyev iyulun 14-də Bakının Binəqədi rayonunun Xocahəsən qəsəbəsində şəhid ailələri və müharibə əlilləri ilə görüşdə çıxışında deyib.

(səh.2)

# Mallar geri qaytarıldı

## Rusiyadan Azərbaycan pomidoru və şaftalısına növbəti qadağa qoyulub



(səh.3)

- **Azərbaycan Qoşulmama Hərəkatına daha bir il müddətinə sədrlik edəcək** (səh.3)
- **Zəngəzura, Göyçəyə və İrəvana gedəcəyik**
  Prezident tarixi çıxış etdi, bizi heç kim dayandıra bilməz (səh.6)
- **Ölüm faktı qeydə alınmayıb**
  Son sutkada 146 nəfər koronavirusa yoluxub, 73 nəfər sağalıb (səh.9)

"Müharibədə itkilərimiz daha da çox ola bilərdi". Bunu Prezident İlham Əliyev iyulun 14-də Bakının Binəqədi rayonunun Xocahəsən qəsəbəsində şəhid ailələri və müharibə əlilləri ilə görüşdə çıxışında deyib. Dövlət başçısı vurğulayıb ki, İkinci Qarabağ müharibəsində planlarımız tam yerinə yetirildi: Üç minə yaxın şəhid vermişik: "Onların hər birinin həyatı çox qiymətlidir. Ancaq onu da bilməliyik ki, apardığımız müharibədə itkilərimiz daha da çox ola bilərdi. Çünki birincisi, əks-hücum əməliyyatı keçirən tərəf adətən, bir qayda olaraq, daha çox itki verir - müdafiə olunan tərəfdən ən yaxşı halda üç-dörd dəfə çox. Bunu hərbçilər daha yaxşı bilirlər.



# "Ermənistan sülh müqaviləsi imzalamağa hazır deyil"

## Prezident: "Ancaq yaxşı fikirləşsinlər, sonra gec ola bilər"

Digər tərəfdən, azad edilmiş torpaqların relyefi bizim üçün çox əlverişsiz idi. Qarşı tərəf üçün əlverişli idi. Onlar bütün strateji yüksəkliklərə sahib idilər. Əlbəttə ki, 30 il ərzində onların qurduqları istehkamlar, 6 müdafiə xətti və mühəndislik işləri onlara böyük üstünlük verirdi. Onlar hesab edirdilər ki, bu müdafiə xəttini, bu istehkamları, bu dağları biz heç vaxt keçə bilmərik. Amma onlar yanıldılar, böyük yanlışlığa, səhvə yol verdilər. Onlar bilmirdilər ki, Azərbaycan xalqı bu 30 il ərzində bir amalla yaşayır: nəyin bahasına olursa-olsun, torpaqlarımızı işğalçılardan azad edək. Biz bu amalla yaşamışıq. Bizi qələbəyə aparan təkcə hərbçilərimizin peşəkarlığı, qəhrəmanlığı, hərbi texnikamız yox, bizi qələbəyə aparan Vətən sevgisi idi. Ən başlıca faktor, ən başlıca amil Vətən sevgisi idi".

**"Ermənistan tərəfindən rəsmi reaksiya yoxdur"**

**Prezident vurğulayıb ki, Ermənistan sülh müqaviləsi imzalamağa hazır deyil, ancaq yaxşı fikirləşsinlər, sonra gec ola bilər:** "Biz Ermənistanla sülh müqaviləsini imzalamağa hazırıq. Yəni bu işlərin başlanmasına hazırıq. Ancaq Ermənistan tərəfindən buna reaksiya yoxdur, rəsmi reaksiya yoxdur. Qeyri-rəsmi kanallarla bizə çatan məlumat budur ki, Ermənistan buna hazır deyil. Hesab edirəm, bu çox böyük bir səhv olacaq. Necə ki, müharibə ərəfəsində və müharibə dövründə Ermənistan tərəfi böyük səhvlər buraxıb, hərbi cinayətlər törədib". Dövlət başçısı bəyan edib ki, bizim təklifimiz yeni real vəziyyətə əsaslanır: "Biz hesab edirik ki, məsələ həll olunub, Ermənistan və Azərbaycan arasında sülh müqaviləsi olmalıdır. Bir-birinin ərazi bütövlüyünün tanınması olmalıdır, sərhədlərin tanınması olmalıdır, delimitasiya işlərinə start verilməlidir. Onu da bildirməliyəm ki, delimitasiya işləri ilə bağlı indi beynəlxalq təşkilatlar da müsbət reaksiya verirlər. Əgər Ermənistan bunu etmək istəmirsə, özü bilər, ancaq yaxşı fikirləşsinlər, sonra gec ola bilər. Necə ki, vaxtilə əgər öz xoşları ilə bizim torpaqlarımızdan çıxsaydılar, bu qədər rəzil duruma düşməzdilər. Bizim bu təklifimiz qalib ölkənin təklifidir, güclü tərəfin təklifidir, müzəffər xalqın təklifidir. Əgər buna Ermənistanda mənfi reaksiya varsa, bunu da özləri bilərlər. Amma yenə də deyirəm, yenə də peşman olacaqlar. Biz isə bundan sonra ancaq və ancaq irəli gedəcəyik. Biz bütün quruculuq işlərimizlə bağlı planları sistemli şəkildə həyata keçiririk və artıq quruculuq işlərinə start verilib. Biz, dediyim kimi, Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. İnsanlar ora qayıdacaq, öz dədə-baba torpağında rahat yaşayacaqlar".

**"Zəngəzur, Göyçə mahalı, İrəvan bizim doğma torpağımızdır. Biz qayıdacağıq"**

**Dövlət başçısı qeyd edib ki, Zəngəzur, Göyçə mahalı, İrəvan bizim doğma torpağımızdır:** "Şərqi Zəngəzur iqtisadi zonası yaradılıb. İndi Ermənistanda bu məsələ ilə bağlı isterikaya qapılırlar. Buna ehtiyac yoxdur, Şərqi Zəngəzur bizim tarixi torpağımızdır, Qərbi Zəngəzur bizim tarixi torpağımızdır. Biz tarixi unuda, kiminsə siyasi maraqlarının girovuna çevrilə bilmərik. Gəlsinlər, açsınlar tarixi sənədləri, xəritələri, baxsınlar, sovet hökuməti Zəngəzuru nə vaxt Azərbaycandan qoparıb Ermənistana verib. Bu, yaxın tarixdir - 101 il bundan əvvəl. Yəni, biz deyək ki, bu, olmayıb? Nəyə görə? Biz həqiqəti deyirik. Bizim dədə-baba torpağımızdır: bütün Zəngəzur - Şərqi və Qərbi Zəngəzur. İndi Ermənistanda deyirlər ki, İlham Əliyev ərazi iddiası ilə çıxış edir. Əgər Şərqi Zəngəzur varsa, deməli, Qərbi Zəngəzur da var. Bəli, Qərbi Zəngəzur bizim dədə-baba torpağımızdır. Demişəm ki, biz oraya qayıtmalıyıq. Bunu hələ on il bundan əvvəl demişəm. Mənim çıxışlarım hamısı mətbuatda var. Demişəm ki, bizim dədə-baba torpağımızdır, biz oraya qayıtmalıyıq, qayıdacağıq və qayıdırıq. Heç kim bizi dayandıra bilməz. Mütləq qayıdacağıq, çünki bunun başqa yolu yoxdur. İndi bütün kommunikasiyalar açılandan sonra, əlbəttə, biz qayıdacağıq və Azərbaycan əhalisi öz dədə-baba torpaqlarına qayıdacaq. Üçtərəfli 10 noyabr bəyanatında göstərilir: Bütün qaçqınlar öz doğma torpaqlarına qayıtmalıdırlar. Bizim doğma torpağımız Zəngəzurdur, bizim doğma torpağımız Göyçə mahalıdır, İrəvandır. Biz qayıdacağıq, əlbəttə..."

**"Azərbaycan ərazisində Dağlıq Qarabağ adlı ərazi vahidi yoxdur, Qarabağ var"**

**Prezident bəyan edib ki, Azərbaycan ərazisində Dağlıq Qarabağ adlı ərazi vahidi yoxdur, Qarabağ var:** "Biz artıq quruculuq işlərinə başlamışıq. Əgər kimsə deyirsə ki, münaqişə həll olunmayıb, gəlsin desin, bunun həllini necə görür, nə həll olunmayıb? Əgər dırnaqarası Dağlıq Qarabağın statusundan söhbət gedirsə, mən demişəm, Azərbaycan ərazisində Dağlıq Qarabağ adlı ərazi vahidi yoxdur". Prezident bildirib ki, ümumiyyətlə, bu söz, ifadə işlənməməlidir: "Dağlıq Qarabağ yoxdur, Qarabağ var. İyulun 7-də imzaladığım Fərman əsasında Qarabağ iqtisadi zonası yaradıldı, vəssalam. Bütün Qarabağa aid olan rayonlar orada birləşib".

**"Biz müharibəyə hər an hazırıq və hazır olmalıyıq"**

**Ölkə rəhbəri vurğulayıb ki, indi yeni dövr başlayıb - quruculuq dövrü, postmünaqişə dövrü:** "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi öz həllini tapıb. Bu münaqişə həll olunub. Bunu da həll edən tərəf bizik, Azərbaycan dövlətidir. Biz bunu birtərəfli qaydada həll etmişik. Əgər kimsə, mən ordan-burdan eşidirəm, yenə də başlayıb ki, məsələ öz həllini tapmalıdır, bu münaqişə həll olunmayıb. Çox yanlış və təhlükəli yoldadırlar. Əgər həll olunmayıbsa, onda qoy bizə izahat versinlər, necə həll olunmalıdır. Biz hesab edirik ki, bu, həll olunub, artıq müharibə dövrü arxada qalıb. Amma buna baxmayaraq, biz müharibəyə hər an hazırıq və hazır olmalıyıq. İyunun 26-da Silahlı Qüvvələr Günündə mən öz açıqlamalarımda bunu demişəm. Biz ordumuzla bağlı yeni planları həyata keçiririk. Ancaq biz hesab edirik ki, münaqişə həll olunub, biz ərazi bütövlüyümüzü bərpa etmişik. Biz Qələbə qazanmışıq. Bizim bu gün gündəlikdə duran hər hansı başqa bir məsələmiz yoxdur. Biz öz sərhədlərimizə sahib çıxmışıq, Ermənistan-Azərbaycan sərhədini nəzarətə almışıq".

**"Ermənistan ordusunun zabitləri əsgərləri səngərdə, avtomobillərdə zəncirləyirdilər ki, qaçmasınlar"**

**Prezident diqqətə çatdırıb ki, İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Bu şanlı Qələbə Azərbaycan xalqının tarixində əbədi qalacaq:** "Bəlkə də tarixdə buna oxşar parlaq və tam qələbə heç vaxt olmayıb. Biz hazırlaşırdıq, bütün tədbirləri görürdük, bütün addımları vaxtında atırdıq. Bütün gücləri bir amal uğrunda səfərbər etmişdik ki, torpaqlarımızı işğalçılardan azad edək. Həm hərbçilərimizin peşəkarlığı, qəhrəmanlığı, texniki təchizat, həm də vətənpərvərlik hissi - bütün bu amillər, xalq-iqtidar birliyi, ölkəmizdə mövcud olan sabitlik və xoş ovqat qələbəyə gətirən amillər olub. Onu da bildirməliyəm ki, müharibə dövründə bir dənə də fərari olmayıb. Amma Ermənistan ordusunda 10 mindən çox fərari olub".

**"Ermənistanın imzaladığı kapitulyasiya aktı imkan verdi ki, minlərlə gəncin həyatını qoruyaq"**

**Ölkə rəhbəri bildirib ki, 10 noyabrda Ermənistanın imzaladığı kapitulyasiya aktı bizə imkan verdi ki, minlərlə gəncin həyatını qoruyaq:** "Çünki əgər Ermənistan kapitulyasiya aktını imzalamasaydı və müharibə davam etsəydi, təbii ki, biz dayanmayacaqdıq. Biz müharibə istəmirik. Ancaq onlar bizə o vaxt tarix verdilər ki, artıq biz Şuşanı geri götürdük və 300-dən çox yaşayış məntəqəsini azad etdik. Amma əgər noyabrın 10-da Ermənistan tərəfindən kapitulyasiya aktı imzalanmasaydı, biz dayanmayacaqdıq".

**"Bizdə olan məlumata görə, ermənilərin itkiləri ən azı 7-8 mindir"**

**Prezident bəyan edib ki, bizdə olan məlumata görə, ermənilərin itkiləri ən azı 7-8 mindir:** "Biz düşməni torpaqlarımızdan qovduq, ərazi bütövlüyümüzü bərpa etdik. Ona görə 3 minə yaxın şəhidimizin həyatdan getməsi, əlbəttə, böyük faciədir. Ancaq Ermənistan bu günə qədər öz itkiləri haqqında məlumat vermir. Bizdə olan və bilirəm ki, müstəqil ekspertlərdə olan məlumatlara əsasən, onların itkiləri ən azı 7-8 mindir. Bunu həm əməliyyatların gedişatı göstərir, eyni zamanda, bizim videotəqdimatlarımız göstərir, ermənilərin məhv edilmiş, qənimət kimi götürülmüş hərbi texnikası göstərir".

**İsmayıl Qocayev**

# Ermənistan yenə atəşlə oynayır

## Şuşa və Naxçıvandakı mövqelərimiz atəşə tutulub

Son günlər Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisində qanunsuz erməni silahlı dəstələri tərəfindən Ordumuza qarşı atəş açılması halları intensivləşib. İyulun 14-də Azərbaycan ərazisində qanunsuz yerləşmiş erməni silahlı dəstələri Şuşa şəhəri ətrafındakı mövqelərimizi pulemyot və avtomatlardan atəşə tutublar.



Elə həmin gün Ermənistan silahlı birləşmələri Naxçıvanın Sədərək rayonu istiqamətində yerləşən Ordumuzun mövqelərinə müxtəlif çaplı silahlardan atəş açıblar. Nəticədə Azərbaycan Ordusunun hərbi qulluqçusu Mərdanlı İbadulla Məhsud oğlu yaralanıb. Ermənistan Müdafiə Nazirliyi isə atışma nəticəsində erməni əsgərin məhv edildiyi haqda məlumat yayıb. Xatırladaq ki, qısa müddət ərzində Ermənistan silahlı qüvvələri Kəlbəcər, Gədəbəy, Tovuz və Ağdam rayonlarındakı Azərbaycan Ordusununun mövqelərini atıcı silahlardan atəşə məruz qoyublar. İyulun 6-da Ağdam rayonunun Əliağalı kəndi istiqamətində törədilən təxribat nəticəsində hərbi qulluqçumuz - baş gizir Sakit Dadaşov yaralanıb. Baş vermiş insidentlərlə bağlı Rusiya sülhməramlı qüvvələrinin komandanlığına məlumat verilsə də, göründüyü kimi heç bir tədbir görülməyib. Ekspertlərin fikrincə, Rusiya sülhməramlıları müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazisindən dərhal erməni silahlı dəstələrini çıxarmalıdır. Bu, onların vəzifə borcu olmaqla yanaşı, 10 noyabr 2020-ci tarixində imzalanmış üçtərəfli Bəyanatın əsas tələblərindən biridir. Mövcud proseslər ondan xəbər verir ki, erməni tərəfi bu və ya digər formada yenidən ”təmas xətti” yaratmaq niyyətindədir. Görünür, bununla Azərbaycan tərəfinin cavab zərbələri fonunda Qarabağda təhlükəsizliklərinin ”pozulduğu” iddiaları ilə çıxış edəcəklər. Bu baxımdan məsələ çox ciddidir və cinayəti törədən ermənilər mütləq məsuliyyətə cəlb edilməlidir. İndiki mərhələdə isə rəsmi Bakı 10 noyabr bəyanatında nəzərdə tutulan şərtin icrasını tələb etməlidir. Ermənilərin Qarabağda yaratdığı bütün qeyri-qanunu hərbi birləşmələr dərhal buraxılmalıdır. Əgər Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazisində qanunsuz erməni silahlı dəstələrinin qarşısı alınmazsa, Azərbaycan ictimaiyyətində ciddi narazılıq yaranacaq. Sülhməramlılar öz vəzifələrini qeyd-şərtsiz yerinə yetirməlidir, çünki qarşılarına konkret öhdəliklər qoyulub. Onların səlahiyyətləri də, səlahiyyət yerləri də açıq şəkildə bəllidir. Bütün vasitələr tükənərsə, anti-terror əməliyyatının keçirilməsi qaçılmaz olacaq.

### Bütün vasitələr tükənərsə, anti-terror əməliyyatının keçirilməsi qaçılmaz olacaq

**Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə ”Şərq”ə açıqlamasında bildirib ki, o, indiyədək ”sülhməramlı” adlandırılan Rusiya hərbçiləri ifadəsini işlədib.** Partiya rəhbərinin sözlərinə görə, ilk gündən rusların həqiqi sülhməramlı missiyanı yerinə yetirəcəyinə böyük şübhə ilə yanaşıb: ”İfadələrimdə dəyişiklik edirəm. Məncə, ”sülhməramlı” deyil, birbaşa erməniməramlı rus qüvvələri deməliyik. Rusiya hərbçiləri Qarabağda olduqları 7-8 aylıq müddətdə faktiki olaraq öz missiyalarını yerinə yetirməyiblər və səlahiyyətlərini dəfələrlə aşıblar. Ermənilərə havadarlıq etməklə məşğul olublar. 10 noyabr üçtərəfli sazişinin 4-cü bəndində birmənalı göstərilib ki, rus hərbçilərinin Qarabağa daxil olmasıyla paralel surətdə erməni silahlıları dərhal bölgəni tərk etməlidirlər. Həmin müddəanın icrası açıq-aşkar pozulub və aylar ötməsinə rəğmən, qanunsuz erməni terrorçuları ərazimizdən çıxarılmayıb. Əksinə, bəlkə də sayları artıb”.

**A.Əlizadə vurğulayıb ki, davamlı təxribatlar, Ağdam və Şuşanın atəşə tutulması aydın şəkildə göstərir ki, erməni birləşmələri Qarabağda daha da möhkəmlənib:** ”Sülhməramlı”ların nəzərət etdiyi bölgədən Şuşaya atəş açılması birbaşa Rusiyanın məsuliyyətidir. Deməli, 10 noyabr sənədinə imza atan Kreml rəhbərinin təminatına məhəl qoyulmur və imzasına hörmət göstərilmir. Əgər elə olmasaydı, torpağımızdakı erməni quldurları daha da harınlamaz, qudurmazdı. Erməni separatçılarının revanş niyyətinə düşməsi nə deməkdir? Kim qarantiya verir ki, təxribatlar nəticəsində hərbçilərimiz həyatını itirməyəcək? Ona görə də bəri başdan ciddi tədbirlər görülməlidir. Rusiya rəhbərliyinə, hərbi komandanlığa xəbərdarlıq edilməli, izahat tələb olunmalıdır. Bəyannamənin şərtləri pozulursa, ruslar ermənilərə havadarlıq edirsə, başqa addımlar atılmalıdır. Əks halda yeni qaynar nöqtə yaranacaq və üçüncü Qarabağ müharibəsi qaçılmaz olacaq”.

**İsmayıl Qocayev**




## Azərbaycan Qoşulmama Hərəkatına daha bir il müddətinə sədrlik edəcək

**Qoşulmama Hərəkatına 3 illik sədrliyi 2022-ci ildə bitməli olan Azərbaycan, Hərəkatın növbəti sədri olacaq Uqandanın sədrliyi 1 il gec təhvil ala biləcəyini ifadə etməsindən sonra Qoşulmama Hərəkatına üzv dövlətlərinin Hərəkata əlavə 1 il sədrlik etmək müraciətini müsbət cavablandırıb.**

Bu barədə Xarici İşlər Nazirliyinin Qoşulmama Hərəkatının aralıq dövr Nazirlər Konfransı ilə bağlı yaydığı məlumatda bildirilib.

*Qeyd edək ki, iyulun 13-14-də Azərbaycan Respublikasının sədrliyi ilə Qoşulmama Hərəkatının (QH) ”Qoşulmama Hərəkatı qlobal çağırışlara qarşı mübarizədə çoxtərəfli səylərin mərkəzində” mövzusunda, virtual formatda aralıq dövr Nazirlər Konfransı keçirilib.*

## Mallar geri qaytarıldı

### Rusiyadan Azərbaycan pomidoru və şaftalısına növbəti qadağa qoyulub

**Rusiyanın Baytarlıq və Fitosanitar Nəzarəti üzrə Federal Xidmətinin (”Rosselxoznadzor”) Qafqaz Bölgələrarası İdarəsi Azərbaycandan Rusiya ərazisinə yoluxmuş meyvə və tərəvəzin gətirilməsinə icazə verməyib.** Sputnik Azərbaycan ”Rosselxoznadzor”a istinadən xəbər verir ki, İdarənin ”Viaduct” müvəqqəti anbarına və Dərbənd dəmiryol stansiyasına iyul ayının əvvəlindən Azərbaycan və İrandan 8 960,5 ton meyvə-tərəvəz çatdırılıb.

Karantin fitosanitar nəzarəti nəticəsində Azərbaycandan gətirilən 83,2 ton pomidor və 36,9 ton şaftalı Rusiya ərazisinə buraxılmayıb.

Meyvə-tərəvəzlərin buraxılmamasının səbəbi Ümumrusiya Bitki Karantin Mərkəzinin Dağıstan şöbəsinin məhsullarda pomidor güvəsi (Tuta absoluta Povolny) və şərq güvəsinin (Grapholitha molesta) aşkarlanmasını təsdiqləyən laboratoriya hesabatı olub.

Karantin qanunvericiliyinin tələblərinə uyğun olaraq mallar ixracatçı ölkələrə geri qaytarılıb, günahkar şəxslər isə inzibati məsuliyyətə cəlb edilib.

# “Qara siyahı” effekt vermədi

## Aqil Camal: “28”-də pul dəyişənlər ”qəzetçiliyə” keçdilər”



**Jurnalistika həmişə diqqət mərkəzində olub. Çünki ictimai rəyə təsir imkanı var. Təəssüf ki, bundan sui-istifadə edənlər az deyil. Bəzi reketçilər özlərini media nümayəndəsi kimi təqdim edərək ”dolanırlar”. Eyni ilə bu günlərdə ifşa edilən ”jurnalistlər”- Azər Kazımovla Rübabə Vəliyeva kimi.**

Beləliklə, cəmiyyətdə mediaya inamsızlıq yaranır. Jurnalistikanın ”IV hakimiyyət” statusu gözdən düşür. Odur ki, ”Şərq” olaraq mövcud problem və onun həlli yolları barədə ”Türküstan” qəzetinin baş redaktoru Aqil Camalla söhbətləşdik.

**- Son proseslər barədə nə düşünürsünüz?**

- Əlbəttə, ”reketçiliklə” məşğul olanları qınayıram. 90-cı illərdə paytaxtın ”28 may” metrostansiyası yaxınlığında valyuta dəyişən dəstə var idi. Sonradan özəlləşdirmə fəaliyyəti ilə məşğul oldular. Ardınca isə ”qəzetçiliyə” keçdilər. Baş verənlər mənə həmin hadisəni xatırladır. İndi onlayn medianın, o cümlədən ”YouTube” platformasının imkanları saxtakarlara daha geniş meydan açır. Onu da deyim ki, belələri daha çox bölgələrdədirlər. Onlar yerli məmurların jurnalist qorxusundan sui-istifadə edirlər.

“Fəaliyyəti olmayan şəxs “İlin ən yaxşı jurnalisti” seçilir”

**- Bəs bu cür ”jurnalistlərə” qarşı necə mübarizə aparmaq lazımdır?**

- ”Qara siyahı”nın tərtib olunması effekt vermədi. Fikrimcə, MEDİA ilə hüquqmühafizə orqanları birgə fəaliyyət göstərməlidirlər. MEDİA-da qaynar xətt yaradılmalı, şikayətləri qəbul etməlidir. Həmçinin qanunvericilik sərtləşdirilməli, ”reketlər” inzibati xətalar və cinayət məcəlləsinin müvafiq maddələri ilə məsuliyyətə cəlb olunmalıdırlar.

**- Niyə digər sahələrə yox, məhz jurnalistikaya süni meyil bu qədər çoxdur?**

- Çünki jurnalistika ilə bağlı fərqli düşüncə mövcuddur. Bircə vəsiqə ilə istənilən hadisəyə müdaxilə edə bilmək ”jurnalistlərin” sayını artırır. Amma başqa səbəblər də var.

**- Məsələn?**

- Saxta diplomlar satılır. Bir də baxırsan ki, heç bir media fəaliyyəti olmayan şəxs ”İlin ən yaxşı jurnalisti” seçilir.

**- Necə düşünürsünüz, vahid jurnalist vəsiqəsinin yaradılması lazımi effekti verəcək?**

- Əlbəttə, bu, özü-özlüyündə yaxşı təşəbbüsdür. Amma yalnız vəsiqə ilə iş bitmir. Konseptual yanaşmaya ehtiyac var. Vahid jurnalist vəsiqəsinin paylanılması ilə yanaşı, eyni zamanda regionlarda maarifləndirmə tədbirləri keçirilməlidir.

**Kənan Novruzov**

# “Mediada islahatlara doğru” mövzusunda silsilə seminarlar başa çatıb








**Medianın İnkişafı Agentliyi və ”ADA” Universitetinin İxtisasartırma Proqramlarının birgə təşkilatçılığı ilə iyunun 14-dən iyulun 10-dək davam edən ”Mediada islahatlara doğru” mövzusunda silsilə seminarlar başa çatıb.**

”Şərq”in məlumatına görə, iyulun 14-də seminarın bağlanış mərasimində çıxış edən ”ADA” Universitetinin İcraçı prorektoru Fariz İsmayılzadə bildirib ki, bu təlimlər media sahəsində yeni trendin başlanğıcına, jurnalistlərin peşəkar inkişafına töhfə verəcək. Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov seminarların əhəmiyyətindən danışıb.

Daha sonra ”ADA” Universitetinin prorektor müavini, İxtisasartırma Programlarının rəhbəri Aygün Hacıyeva seminarlar çərçivəsində əldə olunan nailiyyətlərə dair təqdimatla çıxış edib.

Universitetin Kommunikasiya və rəqəmsal media üzrə müəllimi Şəfəq Mehrəliyeva seminarların buraxılışı münasibətilə iştirakçıları təbrik edib.

Seminar iştirakçıları isə bu seminarların təşkilindən məmnunluğunu ifadə ediblər.

Sonra seminar iştirakçılarına sertifikatlar təqdim edilib.

*Qeyd edək ki, seminarlarda 75 media qurumunun rəhbər şəxsləri iştirak edib. Seminarlar zamanı iştirakçılar qarşısında həm yerli, həm də xarici, o cümlədən Al Jazeera və Haber Global-ın mütəxəssisləri təcrübələrini bölüşüblər.*

## Qoşulmama Hərəkatı ölkəmizin xeyrinə olan platformadır

### Azərbaycanın bu istiqamətdə apardığı siyasəti davam etdirməsi məqsədəuyğundur



**Prezident İlham Əliyev iyulun 13-də Qoşulmama Hərəkatının Xarici işlər nazirlərinin onlayn formatdakı konfransında çıxış edib.**

Ölkə başçısı bildirib ki, Azərbaycanın şanlı Qələbəsi beynəlxalq hüququn, ədalətin və Qoşulmama Hərəkatı dəyərlərinin təntənəsidir.

**Sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli “Şərq”ə bildirib ki, Qoşulmama Hərəkatı Azərbaycan üçün vacib kanallardan biri hesab edilir:** ”Azərbaycanın 2019-cu ildən Qoşulmama Hərəkatına sədrlik etməsi ölkəmiz üçün mühüm hadisələrdən biridir. Dövlətimiz Hərəkatın prinsiplərinə də ciddi şəkildə riayət edir. Beynəlxalq proseslərin fəal üzvü kimi Qoşulmama Hərəkatı Azərbaycan xarici siyasətinin vacib tərəflərindən biridir. Ölkəmizin bu istiqamətdə apardığı siyasəti davam etdirməsi məqsədəuyğundur. Çoxtərəfli formatları nəzərə alsaq, deyə bilərəm ki, bu, ölkəmizin xeyrinə olan platformadır. Qoşulmama Hərəkatına üzv olan ölkələrin bir qismi Qarabağ müharibəsindəki böyük qələbəmizi təqdir edən məktubla Azərbaycan Prezidentini və dövlətimizi təbrik etdilər. Qurumun onlayn tədbirində Prezidentimiz indiyə qədər Hərəkatının önəmini vurğuladı. Konfrans ümumilikdə Qoşulmama Hərəkatının nüfuzuna xidmət edir. Fikrimcə, sözügedən qurumun üzvü olan ölkələr Azərbaycanın sədrliyi dövründə Hərəkatın qazandığı uğurları unutmayacaq və daim xatırlayacaqlar”.

**Yeganə**

# Şuşa Bəyannaməsi düşmənlərin yuxusuna haram qatıb

## Ermənistan Türkiyə-Azərbaycan ittifaqının yaranmasından və regionda təklənməkdən əndişələnir

İmzaların atıldığı gündən xeyli zaman ötsə də, Şuşa Bəyannaməsi hələ də müzakirə mövzusudur. Xüsusən, Rusiya və Ermənistan mediasında, ekspert dairələrində qardaş ölkə ilə müttəfiqlik sənədi ətrafında geniş təhlillər aparılır. Hətta imzalanma mərasimindən sonrakı bütün ciddi proseslərin məhz Şuşa Bəyannaməsi fonunda cərəyan etdiyi deyilir. Erməni akademik Ruben Safrastyan deyib ki, Şuşa Bəyannaməsi Türkiyə-Azərbaycan ümumi dövlətinin yaranmasının başlanğıcı deməkdir.

Safrasyan iddia edib ki, Turan Ordusu da hədəflərdən biridir. O vurğulayıb ki, bu ideya hələlik uzaqda görünsə də, aktiv danışıqları və imzalanan razılaşmaları nəzərə alsaq, türk ölkələri arasında hərbi əməkdaşlığın daha konkret baş tutacağını təxmin etmək olar. Akademik yaxın gələcəkdə türk ölkələrinin hərbi-siyasi blok yaradacağını da istisna etməyib. Safrasyan bu sənədin eyni zamanda ”pantürkist” ideyasını əks etdirdiyini ehtimal etdiyini də bildirib: ”Türkiyə göstərir ki, Azərbaycan kimi, gələcəkdə digər türk ölkələrinin də inteqrasiyası mümkündür. Ankara bu istiqamətdə aktiv şəkildə işləyir, öz potensialını müxtəlif istiqamətlərdə, o cümlədən hərbi sahədə istifadə edir. Türkiyənin ”Bayraqdar” PUA-sı İkinci Qarabağ savaşından sonra böyük populyarlıq qazanıb, Ankara öz silahını türk dünyasında geniş reklam edir və hərbi sahədə əməkdaşlığa təşviq edir”. Onun sözlərinə görə, Şuşa Bəyannaməsinin mətnini oxuyarkən, bunun Azərbaycan-Türkiyə ittifaq dövlətinin əsasını qoyan sənəd olduğunu təxmin etmək olur: ”Sənəd özündə daha başqa mənalar da kəsb edir”.

**Prezident yanında Dövlət İdarəçilik Akademiyasının Politoloqlar Klubunun sədri Elman Vəliyev deyib ki, Şuşa bəyannaməsinin imzalanmasının 1 ayının tamam olmasına baxmayaraq bu bəyannamə bəzi dövlətləri narahat etməkdədir.** Onun sözlərinə görə, xüsusilə Ermənistan tərəfi Türkiyə-Azərbaycan əlaqələrinin dərinləşməsini özləri üçün bir təhdid sayır: ”Şuşa Bəyannaməsi Türkiyə ilə Azərbaycan arasında bağlanan müqavilələr içərisində ən vacibidir. Daha əvvəl də hər iki tərəf arasında müqavilələr imzalanıb. Amma budəfəki kimi aşkar formada, daha müfəssəl şəkildə əhatə etmirdi. Bəyannamə təhlükəsizlik, iqtisadi, hərbi əməkdaşlığı özündə ehtiva edir. Bəyannamənin işğaldan azad edilmiş Şuşa şəhərində açıq şəkildə media qarşısında imzalanması subliminal mesaj xarakteri daşıyır. Türkiyə daim Azərbaycana yardım etməyə hazır olduğunu bildirib. Amma rəsmi sənəd olmadığından bəzən bu məsələlər müşkül vəziyyətə düşürdü. İndi Türkiyə Azərbaycana və yaxud əksinə, Azərbaycan Türkiyəyə açıq şəkildə yardım edərsə, bu, rəsmi standartlara cavab verəcək. Çünki tərəflər arasında hüquqi bir bəyanat imzalandı. Ermənistanın bir qonşusu Türkiyə, digər qonşusu Azərbaycandır. İki gücün birlikdə əməkdaşlığı Ermənistanı narahat etməyə bilməz. Nəinki Ermənistanı, anti-türk güclər də narahat edir. Ermənistan tərəfinin qorxusu bölgədə təklənməkdir. Ona görə Rusiya və Fransanı özünə arxa-dayaq görür. Ehtiyat edir ki, bölgə Türkiyə-Azərbaycan ittifaqının tam nəzarətində olar və Ermənistan bu ittifaqdan asılı hala salına bilər”.



**Analitik vurğulayıb ki, Şuşa Bəyannaməsinin mühüm bir nüansı odur ki, Qarabağda olan qüvvələr missiyalarının bitməsi zamanı iğtişaş yaradarsa, bəyanatın müvafiq bəndinə əsasən, Türkiyə qoşunları qanuni şəkildə Azərbaycana dəstək verə biləcək:** ”Digər yandan Qarabağdakı sülhməramlıların bölgədə varlığı digər qüvvələri - Qərbi, ABŞ-ı narahat etməkdədir. Bəzi xarici ”ekspertlər” deyirlər ki, sülhməramlılar 5 ildən çox qalacaqlar. Zənn etmirəm ki, sülhməramlıların missiyalarının tamamlandığı vaxt onlardan geri çəkilmələrini tələb etsək, qarşıdurma yaranacaq. Əgər belə bir şey baş verərsə, beynəlxalq aləm bu qüvvələrin sülhməramlı olmadığını görmüş olacaqlar”.

**E.Vəliyevə görə, türk dövlətlərin əməkdaşlıqları getdikcə artmaqdadır:** ”Zəngəzur dəhlizi türk dünyası üçün olduqca vacibdir. Bu dəhliz türk dövlətləri arasındakı əlaqələri daha da intensivləşdirəcək. Dəhlizdən keçən nəqliyyat, rabitə və infrastruktur layihələri türk dünyası üçün mühüm rol oynayır. Azərbaycan birbaşa quru yolla Naxçıvanla, Türkiyə ilə əlaqə yarada biləcək. Qarşılıqlı ticarət xeyli sürətlənəcək. Zəngəzur dəhlizi Asiya ilə Avropanı birləşdirən, beynəlxalq yükdaşımaları təmin edən önəmli marşrut olacaq. Dəhlizin iqtisadi üstünlüyünü sübut edən amil Çinin bu layihəyə böyük önəm verməsidir”.

Ekspert hesab edir ki, Ermənistan tərəfi kompromisə getmək əvəzinə konflikti davam etdirmək yolunu tutarsa, ciddi təhlükə ilə üzləşəcək: ”Sülh ən çox Ermənistana lazımdır. Armen Qriqoryan bildirir ki, Əgər Ermənistan regionda kommunikasiyaların açılmasına etiraz etmirsə, o halda Türkiyə ilə münasibətlərdə bəzi dəyişikliklər edilməlidir. Dəyişikliklər deyəndə, buzları əritmək nəzərdə tutulur. Fikrimcə, bu, Ermənistan üçün ən doğru seçimdir”.

**İsmayıl Qocayev**

# Bakı və Tbilisi daha da yaxınlaşdı



## Qardaşlaşma haqqında Memorandum iki ölkə arasında iqtisadi və mədəni əməkdaşlığa müsbət töhfə verəcək

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dünən Gürcüstanın paytaxtı Tbilisi şəhərinin meri Kaxa Kaladzeni qəbul edib.**

K.Kaladze söyləyib ki, Azərbaycan və gürcü xalqları uzun əsrlərdən bəri sülh və dostluq şəraitində yaşayıblar. Tbilisi meri qeyd edib ki, ölkəsində Azərbaycan ilə münasibətlərə xüsusi önəm verilir.

O, Bakıda göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirərək bu səfərin Bakı və Tbilisi şəhərləri arasında əlaqələrin möhkəmlənməsində xüsusi rol oynayacağını vurğulayıb.

Sonra Bakı və Tbilisi şəhərləri arasında Qardaşlaşma haqqında Memorandum imzalanıb.

**Siyasi analitik Turab Rzayev məlum sənədin əhəmiyyətini "Şərq"ə şərh edib:** "Sözügedən Memorandumun imzalanması çox müsbət addımdır.



Xüsusilə, son dönəmlər əlaqələrdə müəyyən qədər gərginlik yaranmışdı. Həm Gürcüstan, həm Azərbaycan cəmiyyətində, həm də iki dövlət arasındakı əlaqələrdə müəyyən qədər uzaqlaşma meyilləri var idi. Sırf Gürcüstan Baş nazirinin son səfərindən sonra müəyyən dəyişikliklər nəzərə çarpdı və iki dövlət arasındakı münasibətlərin inkişafına töhfə verən məsələlər ortaya çıxdı".

**T.Rzayev vurğulayıb ki, Bakı və Tbilisi şəhərləri arasında Qardaşlaşma haqqında Memorandum iki ölkə arasında iqtisadi və mədəni əməkdaşlığa çox müsbət töhfə verəcək:** "Bundan sonra da Gürcüstanla iqtisadi, siyasi və mədəni əlaqələrin inkişafına dəstək olmalıyıq. Bunun üçün əlimizdən gələni etməliyik. Lakin Gürcüstan hökumətinin üzərinə də böyük öhdəliklər düşür. Gürcüstan hökuməti strateji xətlərimizin mühafizəsi ilə dərindən məşğul olmalıdır. Bu, həm strateji neft-qaz xətləri, həm nəqliyyat, həm də Bakı-Tbilisi-Qars dəmir yolu xəttidir ki, onlara süni maneələr yaradılır. Ona görə də həmin əngəllər aradan qaldırılmalıdır. Gürcüstanda yaşayan soydaşlarımızın da problemi ilə ciddi şəkildə maraqlanılmalı, onların etnik zəmində problemləri olmamalıdır".

**Yeganə Bayramova**

## 7 erməni hərbçinin qalıqları tapılıb

### Qalıqları tapılanlar Qarabağdakı döyüş əməliyyatlarının iştirakçıları olub

**İşğaldan azad olunmuş Azərbaycan torpaqlarında dünən aparılmış axtarış işləri zamanı daha 7 erməni hərbçinin qalıqları tapılıb.**

APA "Sputnik Armenia"ya istinadən xəbər verir ki, qalıqlar Xocavənd rayonu ərazisində aşkar edilib.

Qalıqları tapılanlar Qarabağdakı döyüş əməliyyatlarının iştirakçıları olub.

Meyiti tapılanların kimliyinin müəyyənləşdirilməsi üçün məhkəmə ekspertizası aparılacaq.

## Dünya üçüncü dalğanın başlanğıcındadır

### "Delta" variantı artıq 110-dan çox ölkədə aşkarlanıb

**"Koronavirusun "delta" ştammı yoluxma sayının artmasında əsas səbəblərdən biridir. Dünya pandemiyanın üçüncü dalğasının başlanğıcındadır".**

"RİA Novosti" xəbər verir ki, bunu Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) baş direktoru Tedros Adhanom Qebreyesus deyib.

O qeyd edib ki, Avropa və Şimali Amerikada əhali arasında vaksinasiyanın artması nəticə verib və virusa yoluxma, ölüm sayında azalma müşahidə olunub. Ancaq sonra vəziyyət yenidən dəyişib və dünya yeni dalğanın başlanğıc mərhələsindədir.

Onun sözlərinə görə, "delta" variantı artıq 110-dan çox ölkədə aşkarlanıb və yaxın vaxtlarda dünyada dominantlıq edəcək ştamma çevriləcək.

# Şuşa qələbəsi

## Müharibədəki məğlubiyyət Ermənistanın bütün resurslarını tükədib



Azərbaycanda akkreditə olunmuş diplomatik korpus nümayəndələrinin Füzuli və Şuşaya səfəri mövcud vəziyyətin öyrənilməsi, həqiqətlərin bütün dünyaya çatdırılması baxımından çox önəmli hadisədir. Diplomatik nümayəndələrin, xarici ölkə səfirlərinin budəfəki səfərləri də istər Ermənistanın hazırkı hərbi-siyasi rəhbərliyinin, istərsə də onun sələflərinin faşist xislətini daha əyani şəkildə göstərmiş oldu.

Ermənilərin əsl simasını ortaya qoydu. Diplomatların açıqlamalarından da aydın sezildi ki, onlar bu torpaqların ermənilər üçün yad olduğunu qarşılaşdıqları "mənzərə" sayəsində əyani gördülər. Əvvəlcədən gözlənildiyi kimi bu səfər Ermənistanı və onun havadarlarını bərk qıcıqlandırdı. Ermənilər narahatlıqlarını gülünc addımlarla büruzə verdilər. Ermənistanın başsız Xarici İşlər Nazirliyi diplomatların Şuşaya səfərini "qanunsuz" adlandıraraq, Ermənistandakı konsulları XİN-ə çağıraraq onlara "nota" verdi. Kin və nifrəti ilə yanaşı növbəti absurd hərəkətlərini sərgilədilər. Növbəti dəfə həyasızlıq nümayiş etdirərək Şuşaya getməyin "qəbuledilməz" olduğunu bildirdilər. Ermənistan XİN-in "notası" Azərbaycan tərəfində səssiz qarşılanmayıb. Xarici İşlər Nazirliyimiz vurğulayıb ki, Azərbaycanın beynəlxalq sərhədləri çərçivəsindəki ərazisinə edilən hər hansı səfər Ermənistan tərəfindən nəinki etiraz, heç şərh belə oluna bilməz. Nazirliyin mətbuat xidmətinin rəhbəri Leyla Abdullayeva bildirib ki, Ermənistan XİN-in bu addımı beynəlxalq hüquqa ziddir və ərazi iddialarından çıxış edən mövqe deməkdir: "Bu ərazilərə səfərlər Ermənistanın hərbi işğalı altında olan zaman qanunsuz xarakter daşıyırdı. Artıq Şuşa azad olunub, digər azad olunan bölgələrimiz kimi Azərbaycanın tərkib hissəsidir. Bura səfərlər də edilir və ediləcək, bərpa işləri də həyata keçirilir, şəhərin qanuni sahibləri öz evlərinə geri qayıdacaqlar, bir sözlə, mədəniyyət beşiyimizdə həyat yenidən canlanacaq".

## "İrəvanın yeganə çıxış yolu diplomatik cəbhədə mənasız cəhdlər etməkdir"



**Demokratiya və İnsan Haqları İnstitutunun rəhbəri, siyasi şərhçi Əhməd Şahidov "Şərq"ə deyib ki, Ermənistan müharibədə hər şeyini, bütün resurslarını tükədib. Ekspertin sözlərinə görə, İrəvanın yeganə çıxış yolu diplomatik cəbhədə mənasız cəhdlər etməkdir:** "Çox həyasız bir bəyanatdır. Dünya ölkələri Qarabağın, Şuşanın Azərbaycana məxsus olduğunu bilir və hər bir ölkə ərazi bütövlüyümüzü tanıyır. Əslində Ermənistan tərəfi də 10 noyabr və 11 yanvar bəyanatlarına imza atmaqla bunu rəsmən təsdiqləyib. Bu baxımdan xarici ölkə səfirlərinin Azərbaycanın istənilən ərazisinə, habelə Şuşaya səfərinin təşkil edilməsi normal və təbii haqqımızdır. Aylardır bu ənənə davam etdirilir. Digər rayonlarımıza da diplomatik korpusun nümayəndələrinin səfərləri təşkil olunub. Hesab edirəm ki, erməni vəhşiliyinin dünya ictimaiyyətinin diqqətinə çatdırılması baxımından bu cür səfərlər çox effektlidir. Hər bir ölkənin səfiri ilk növbədə öz ölkəsini məlumatlandırır".

**Ə.Şahidov vurğulayıb ki, Ermənistan çıxılmaz vəziyyətdədir:** "Cənab Prezidentin də ifadə etdiyi kimi dalana dirənib. Hazırda edə biləcəkləri yeganə iş XİN vasitəsi ilə müəyyən açıqlamalar, notalar verməkdir. Əslində bu məqam Ermənistanın nə qədər çaşqın və məyus durumda olduğunu göstərir. Hər bir ölkənin səfiri hara, nə məqsədlə səfər etdiyini çox yaxşı bilir. Qarabağda infrastruktur tam bərpa olunandan sonra ora səfərlərin sayını daha da artırmaq lazımdır. Biz 30 ilə yaxın davam edən erməni vandalizmini hər kəsə göstərməliyik. Ümumiyyətlə, müharibənin nə qədər dağıdıcı fəaliyyət olduğunu dünyaya çatdırmalıyıq. Azərbaycanlılar haqlı yoldadır. ABŞ, Rusiya və Fransa səfirlərinin Şuşaya getməkdən imtina etməsi anlaşılan deyil. Düzdür, bunu neytral qalmaqla əsaslandırıblar. Amma bunun özü absurd yanaşmadır. Çünki hər üç ölkə həmsədr dövlət olmaqla yanaşı, ayrılıqda Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir".

**İsmayıl Qocayev**



# Overçuk Bakıya detalları müzakirə etmək üçün gəlmişdi

*Əsas həll edilməli məsələ Qazaxın işğal altında qalan 7 kəndinin taleyidir*

**Prezident İlham Əliyev Rusiya baş nazirinin müavini, kommunikasiyanın bərpası üzrə üçtərəfli işçi qrupun həmsədri Aleksey Overçuku qəbul edib. Əsas müzakirə mövzusu təbii ki, Ermənistan tərəfindən sərhəd məsələsinə görə birtərəfli qaydada dayandırılan üçtərəfli işçi qrupunun fəaliyyətinin bərpasıdır.**

Üçtərəfli işçi qrupunun fəaliyyətinin bərpası ilə bağlı razılıq əldə olunub, lakin bu, yalnız Ermənistanda hökumət formalaşdırıldıqdan sonra mümkün olacaq. O zaman sual yaranır: Overçuk niyə indi Bakıya gəlib və onu gətirən səbəblər nədir?

**Siyasi şərhçi Asif Nərimanlı vurğulayıb ki, Moskvada Putin-Paşinyan görüşündə üçtərəfli razılaşmaların icrası ilə bağlı konkret müzakirələr aparılıb və mümkündür ki, Overçuk detalları Bakıya təqdim edir.** Analitikin sözlərinə görə, Rusiya üçüncü qüvvələrin müdaxiləsinə imkan yaratmamaq üçün üçtərəfli razılaşmaların icrasına, xüsusilə kommunikasiyanın bərpasına tələsir və Ermənistanda hökumət formalaşan kimi konkret nəticələr əldə etmək niyyətindədir: ”Putin Paşinyanla müzakirədən sonra Əliyevlə canlı təmasda detalları dəqiqləşdirir. Rusiyanın kommunikasiyanın sürətli bərpasında əsas hədəfi Ermənistanla quru əlaqədə Gürcüstan marşrutuna alternativ əldə etməkdir. Ruslar üçün əsas alternativ marşrutun Qazax-İcevan yolu olduğu görünür. Üçtərəfli işçi qrupu çərçivəsində müzakirə olunan mövzulardan biri də budur. İstisna deyil ki, Rusiya bu marşrutun daha tez açılmasında maraqlıdır və Overçukun Bakıya qədər gəlməsinin səbəblərindən biri də bu ola bilər. Burada əsas həll edilməli məsələ Qazaxın işğal altında qalan 7 kəndinin taleyidir. Çünki adıçəkilən yol Bərxudarlı üzərindən keçir və bu kommunikasiyanın bərpası üçün öncə həmin kəndlərin taleyi həll edilməlidir. Bakının əsas tələbinin də bu olduğu ehtimalı böyükdür. Üçtərəfli işçi qrupunun Ermənistan tərəfdən olan həmsədri Mher Qriqoryan erməni mediasında müsahibəsində bildirdi ki, ”Tavuş (Qazax istiqaməti -red ) bölgəsində dəmiryolu və avtomobil yolunun bərpası gündəmdədir”. Overçukun Bakı səfərində mümkündür ki, kəndlərin taleyi ilə bağlı detallar da müzakirə olunub. Gözləniləndir ki, Paşinyanın Moskva səfərindən sonra Prezident İlham Əliyevlə Putinin də görüşü keçirilsin. Məqsəd Ermənistanda hökumət formalaşandan sonra Moskvada mümkün üçtərəfli görüşə hazırlaşmaqdır və istisna deyil ki, Overçukun indi Bakıya səfərinin əsas məqsədi də Prezidentin proseslərlə bağlı mövqeyini dəqiqləşdirməkdir”.

**İsmayıl Qocayev**



## Təxribatlar davam edir

Pənah Hüseyn: “Erməniləri daha böyük atəşlə susdurmalıyıq”

**Ermənistan silahlı qüvvələrinin bölmələri Naxçıvan istiqamətindəki mövqelərimizi atəşə tutub. Bununla bağlı Müdafiə Nazirliyi məlumat yayıb.**

Nəticədə Azərbaycan Ordusunun hərbi qulluqçusu Mərdanlı İbadulla Məhsud oğlu yaralanıb. Yaralıya ilkin tibbi yardım göstərilib. O, tibb müəssisəsinə təxliyə olunub.

Düşmən cavab atəşi ilə susdurulub. Hazırda bu istiqamətdə vəziyyət sabitdir, əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

**Sabiq baş nazir, Xalq Partiyasının sədri Pənah Hüseyn “Şərq”ə açıqlamasında Ermənistan silahlı qüvvələrinə adekvat cavab verməli olduğumuzu söyləyib:** ”Erməniləri bu əməlinə görə daha böyük atəşlə susdurmalıyıq. Ümumiyyətlə, belə təxribatlar davam edərsə, bu, xüsusən əhalinin təhlükəsizliyinə təhdiddir. Ona görə də həmin ərazidə yaşayan vətəndaşlarımızı qorumaq üçün təhlükəsizlik zonasının yaradılması barədə düşünmək lazımdır”.

**Yeganə**



## Ermənistan "tütəyin səsinə oynayır"

Həmsədr dövlətlərin Şuşa demarşı da buna hesablanıb

**“Ermənistanın atəşkəsi pozması Bakını təxribata çəkmək cəhdləridir”.**

Bunu tanınmış jurnalist Xəqani Səfəroğlu deyib. O bildirib ki, ABŞ dövlət katibinin bəyanatı bu təxribatın geopolitik mesajını açıq göstərir: ”Blinken Paşinyanla danışığında bəyan edib ki, ”Dağlıq Qarabağdakı müharibədən sonra yaranmış son status-kvo sabitiliyə təminat vermir... Minsk qrupunun fəaliyyəti bərpa edilməlidir”. Ermənistan bu ”tütəyin səsinə oynayır”. Həmsədr dövlətlərin Şuşa demarşı da buna hesablanıb. Rusiya Üçtərəfli Bəyanatın qarantı kimi Dağlıq Qarabağ üzrə sənəddə əksini tapan öhdəlikləri tezliklə yerinə yetirməyə başlamalıdır. Silahlı erməni dəstələri Qarabağdan çıxarılmalıdır. Dağlıq Qarabağda silah yalnız sülhməramlıların və Azərbaycan Ordusunun əlində ola bilər. BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı Dağlıq Qarabağdan qaçqın düşmüş azərbaycanlıların geriyə qayıtması üçün xüsusi plan hazırlamalıdır. Tezliklə Dağlıq Qarabağdan qaçqın düşmüş azərbaycanlıların ünvanlı siyahısı müəyyən edilməli, Xankəndi humanitar dəhlizlərlə bölünməli, azərbaycanlıların geriyə qayıtması üçün iş başlanmalıdır. Açıq yaradan qan damar”.

**İsmayıl**

# Zəngəzura, Göyçəyə və İrəvana gedəcəyik

Prezident tarixi çıxış etdi, bizi heç kim dayandıra bilməz



**Dünən Prezident İlham Əliyev Xocasən qəsəbəsində şəhid ailələri və müharibə əlillərinə mənzillərin və avtomobillərin təqdim edilməsi mərasimində iştirak edib. Ölkə başçısı mərasimdəki çıxışı zamanı mühüm açıqlamalar verib.**

Cənab Prezident qeyd edib ki, bizim doğma torpağımız Zəngəzurdur, Göyçə mahalıdır, İrəvandır: ”İyulun 7-də imzaladığım Fərman əsasında Qarabağ iqtisadi zonası yaradıldı, vəssalam. Bütün Qarabağa aid olan rayonlar orada birləşib. Şərqi Zəngəzur iqtisadi zonası yaradılıb. İndi Ermənistanda bu məsələ ilə bağlı isterikaya qapılırlar. Buna ehtiyac yoxdur, Şərqi Zəngəzur bizim tarixi torpağımızdır, Qərbi Zəngəzur bizim tarixi torpağımızdır.

Biz tarixi unuda bilmərik. Kiminsə siyasi maraqlarının girovuna çevrilə bilmərik. Gəlsinlər, açsınlar tarixi sənədləri, xəritələri, baxsınlar, sovet hökuməti Zəngəzuru nə vaxt Azərbaycandan qoparıb Ermənistana verib. Bu, yaxın tarixdir - 101 il bundan əvvəl. Yəni biz deyək ki, bu, olmayıb? Nəyə görə? Biz həqiqəti deyirik. Bizim dədə-baba torpağımızdır: bütün Zəngəzur - Şərqi və Qərbi Zəngəzur. İndi Ermənistanda deyirlər ki, İlham Əliyev ərazi iddiası ilə çıxış edir. Əgər Şərqi Zəngəzur varsa, deməli, Qərbi Zəngəzur da var. Bəli, Qərbi Zəngəzur bizim dədə-baba torpağımızdır. Demişəm ki, biz oraya qayıtmalıyıq. Bunu hələ on il bundan əvvəl demişəm. Mənim çıxışlarım hamısı mətbuatda var. Demişəm ki, bizim dədə-baba torpağımızdır, biz oraya qayıtmalıyıq və qayıdacağıq və qayıdırıq. Heç kim bizi dayandıra bilməz. Mütləq qayıdacağıq, çünki bunun başqa yolu yoxdur”.

**Ölkə başçısının tarixi açıqlamasını ”Şərq”ə dəyərləndirən Sosial Tədqiqatlar Mərkəzinin Mətbuat xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə mütəxəssis Əziz Əlibəyli vurğulayıb ki, Prezidentin bu söylədiklərindən sonra müəyyən dəyişikliklər olacaq:** ”Cənab Prezident bu gün son baş verən proseslərə münasibətində bəzi məqamlara toxundu. İlk növbədə kommunikasiyaların açılması gecikdirilir, ikincisi, demarkasiya prosesinə zərbə vurulur, üçüncüsü, bütövlükdə Azərbaycanın suverenliyinə növbəti dəfə ermənilər tərəfindən qəsd edilir. Bu həm də sülhməramlıların gözü qarşısında baş verir.

Cənab Prezidentin belə addım atmasının arxasında isə məhz bu səbəblər dayanır: ilk olaraq tarixi haqqımız var. Biz İrəvana gedirik, oralar tarixi torpaqlarımızdır. Prezident həmçinin Qarabağ məsələsinə istinad edib bunun bütövlükdə siyasi leksikondan çıxarılmasını ifadə edir. Beləliklə, artıq hədəflərimizin Zəngəzur, Göyçə və İrəvan olduğunu qeyd edir”.

**Ə.Əlibəylinin sözlərinə görə, Azərbaycan əlindeki hərbi, iqtisadi və siyasi imkanlardan minimum istifadə etməklə ərazi bütövlüyümüzü bərpa etmiş oldu:** ”Həmçinin Qarabağ problemini böyük ölçüdə həll etmişik. İşğal altında olan ərazilərimizin 75 faizini ordumuzun gücü ilə düşmən tapdağından qurtarmışıq. Yerdə qalan torpaqlarımızda isə Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi ərazi var. Bundan sonra doğma torpağımız olan Zəngəzurdan kommunikasiyalarımız keçməlidir. Qədim Azərbaycan torpağı Göyçə, qədim şəhərimiz isə İrəvandır. Artıq bunları ölkə başçısı gündəmə gətirməklə, siyasi tezislərin əsas arqumenti kimi ortaya çıxartmaqla siyasətin daha geniş üfüqlərə vardığını ifadə etdi. Bundan sonra öz tarixi sərhədlərimizə doğru irəliləyəcəyik”.

**Yeganə Bayramova**

# Yekun sülh müqaviləsi İrəvana daha çox



## *Qarşıdakı 10-15 il ərzində Ermənistanın hansısa müharibəyə başlaması imkanı olmayacaq*

Prezident İlham Əliyev Xocahəsən qəsəbəsində şəhid ailələri və müharibə əlillərinə mənzillərin və avtomobillərin təqdim edilməsi mərasimində çıxış edib. O bildirib ki, biz Ermənistanla sülh müqaviləsini imzalamağa hazırıq. Yəni bu işlərin başlanmasına hazırıq. Ancaq Ermənistan tərəfindən buna reaksiya yoxdur, rəsmi reaksiya yoxdur. Qeyri-rəsmi kanallarla bizə çatan məlumat budur ki, Ermənistan buna hazır deyil.

"Hesab edirəm, bu çox böyük bir səhv olacaq. Necə ki, müharibə ərəfəsində və müharibə dövründə Ermənistan tərəfi böyük səhvlər buraxıb, hərbi cinayətlər törədib. Bu, növbəti böyük səhv ola bilər. Çünki bizim bu təklifimiz yeni real vəziyyətə əsaslanır. Biz hesab edirik ki, məsələ həll olunub, Ermənistan və Azərbaycan arasında sülh müqaviləsi olmalıdır. Bir-birinin ərazi bütövlüyünün tanınması olmalıdır, sərhədlərin tanınması olmalıdır, delimitasiya işlərinə start verilməlidir. Onu da bildirməliyəm ki, delimitasiya işləri ilə bağlı indi beynəlxalq təşkilatlar da müsbət reaksiya verirlər. Əgər Ermənistan bunu etmək istəmirsə, özü bilər, ancaq yaxşı fikirləşsinlər, sonra gec ola bilər. Necə ki, vaxtilə əgər öz xoşları ilə bizim torpaqlarımızdan çıxsaydılar, bu qədər rəzil duruma düşməzdilər. Bizim bu təklifimiz qalib ölkənin təklifidir, güclü tərəfin təklifidir, müzəffər xalqın təklifidir. Əgər buna Ermənistanda mənfi reaksiya varsa, bunu da özləri bilərlər. Amma yenə də deyirəm, yenə də peşman olacaqlar. Biz isə bundan sonra ancaq və ancaq irəli gedəcəyik. Biz bütün quruculuq işlərimizlə bağlı planları sistemli şəkildə həyata keçiririk və artıq quruculuq işlərinə start verilib. Biz, dediyim kimi, Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. İnsanlar ora qayıdacaq, öz dədə-baba torpağında rahat yaşayacaqlar", - deyə dövlət başçısı əlavə edib.

**Millət vəkili Zahid Oruc yekun sülh müqaviləsi barədə "Şərq"ə danışıb. Onun fikrincə, yekun sülh müqaviləsi ən çox İrəvanın özünə lazımdır:** "Şuşa və Naxçıvan istiqamətlərində atəşkəsin pozulması onu deməyə əsas verir ki, Ermənistanda hakimiyyətə tabe olmayan, itaətsizlik edən qüvvələr var. Onlar gələcək sülhə mane olmaq istəyirlər. Paradoks ondan ibarətdir ki, qarşıdakı 10-15 il ərzində Ermənistanın hansısa müharibəyə başlaması imkanı olmayacaq. Bunu daxildəki siyasilər də dərk edirlər. Sülh isə çıxış yoludur. Əks halda demoqrafik böhran, emiqrasiya daha ciddi problemlər yaradacaq. Belə getsə, 2050-ci ildə yerli əhli cəmi bir milyon qalacaq".

**Z.Oruc, həmçinin proseslərin gələcək inkişafından da söz açıb: "Bizim "yol xəritəmiz" məlumdur.** Ermənistan iddialarından əl çəkməlidir. Düşmən ordunun "qalıqları" Qarabağdan çıxmalıdır, torpaqlarımıza qayıdış təmin olunmalıdır. Sonra isə birgə yaşayış barədə danışıla bilər. Vətəndaşlığımızı, konstitusiyamızı qəbul edən erməninin Qarabağda yaşaması üçün problem yoxdur. Onu da deyim ki, yekun sülh müqaviləsi təkcə iki ölkə arasında imzalanan sənəd olmayacaq, regional əhəmiyyət daşıyacaq. Yəni eyni dərəcədə həm də Türkiyəni, Rusiyanı, İranı, Gürcüstanı maraqlandıracaq. Odur ki, biz diplomatik müstəvidəki qətiyyətimizi davam etdirməliyik".

**Kənan Novruzov**

## Qanuna dəyişiklik çox uğurlu və faydalıdır

### Hərbi xidmətə cəlb olunmuş uşaqlı şəxslərin hər bir övladına ayda 100 manat ayrılması böyük yardımdır



**Prezident İlham Əliyev "Hərbi qulluqçuların statusu haqqında" qanuna dəyişiklikləri təsdiq edib.**

Yeni dəyişikliklərə əsasən, müddətli həqiqi hərbi xidmətdə olan hərbi qulluqçuların uşaqlarına "Sosial müavinətlər haqqında" Qanununa uyğun olaraq aylıq müavinət ödənilməsi digər qanunverici aktlarda da nəzərə alınır. Uyğunlaşdırılan dəyişikliklərə əsasən, şəxs müddətli həqiqi hərbi xidmətdə olduğu zaman hər övladına aylıq 100 manat sosial müavinət ödəniləcək. Bu növ sosial müavinətlər müddətli həqiqi hərbiçilərin 16 yaşına çatmamış uşaqlarına aylıq olaraq veriləcək. Ekspertlərin fikrincə, bu addım sosial xarakter daşıyır və məqsəd müddətli həqiqi hərbi xidmətdə olan hərbi qulluqçu ailələrinin sosial təminatını gücləndirməkdir.

**İqtisadçı-ekspert Fuad İbrahimov "Şərq"ə bildirib ki, bu addım dövlətin sosialyönümlü layihələrinin tərkib hissəsidir. Onun sözlərinə görə, çox uğurlu və faydalı dəyişiklikdir:** "Əslində bu addım başlanğıcdır, start mərhələsindədir. Yəni stimullaşdırıcıdır. Şübhə yox ki, sosial müavinətlərlə bağlı qərarlar davamlı olacaq və əhalinin əksər təbəqəsini əhatə edəcək. Nəzərə alaq ki, bu cür qərarlar üçün ilk növbədə hökumətin maliyyə dayanıqlığı olmalıdır. Hazırda maliyyə dayanıqlığımız qənaətbəxşdir. Hərbi xidmətə cəlb olunmuş ailəli və uşaqlı şəxslərin hər bir övladı üçün ayda 100 manat alması çox böyük yardımdır. Düzdür, istehlak səbətini ödəməyə bilər, amma istənilən halda ailəyə ciddi dəstəkdir. İqtisadi cəhətdən də, sosial baxımdan da təqdirəlayiq haldır".

**İsmayıl**

# Əfqanıstana sülh gətirə bilərik

## Azərbaycanın nüfuzu artıq Cənubi Qafqazın sərhədlərini aşıb



Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib. Dövlət başçıları Tacikistan-Azərbaycan ikitərəfli münasibətlərinin aktual aspektlərini, xüsusən tərəflərin iqtisadi-ticari əlaqələrini müzakirə edərək, son illərdə bu əlaqələrin inkişafının müsbət dinamikasını vurğulayıblar.

Tərəflər Əfqanıstanda hazırkı hərbi-siyasi vəziyyətə xüsusi diqqət ayırıblar. Bununla əlaqədar, Emoməli Rəhmon Əfqanıstanın Tacikistanla həmsərhəd əyalətlərində yaranan həyəcanlı vəziyyət barədə Azərbaycan Prezidentini ətraflı məlumatlandıraraq, MDB-nin cənub sərhədlərində vəziyyətin kəskinləşməsinə görə ciddi narahatlıq ifadə edib. Tacikistan Respublikasının Prezidenti Azərbaycan Respublikasının Prezidentini onun üçün münasib vaxtda Tacikistana rəsmi səfərə dəvət edib. Azərbaycan Prezidenti dəvəti minnətdarlıqla qəbul edib.

**Mövzu ilə bağlı Milli Məclisin deputatı Sahib Alıyev "Şərq"ə açıqlama verib.** O vurğulayıb ki, Tacikistan Prezidenti Emoməli Rəhmonun Azərbaycanın dövlət başçısı Cənab İlham Əliyevə zəngi rəsmi Bakının təsirinin artıq Qafqazın sərhədlərini aşdığını göstərən yeni geosiyasi reallıqdan xəbər verir: "Xatırladaq ki, telefon danışığıyla bağlı rəsmi bilgidə tərəflərin iki ölkə arasındakı əlaqələrə toxunmaqla yanaşı, "Əfqanıstanda hazırkı hərbi-siyasi vəziyyətə xüsusi diqqət" ayırdıqları vurğulanır. Bəllidir ki, biz KTMT üzvü deyilik, fəqət buna baxmayaraq Tacikistan prezidenti ölkəsinin "Əfqanıstanla həmsərhəd əyalətlərində yaranan həyəcanlı vəziyyət"lə bağlı cənab İlham Əliyevə ətraflı bilgi verirsə, deməli, Azərbaycanın oradakı proseslərə təsir imkanlarının olduğu düşüncəsindədir və dəstəyimizə ehtiyac duyur. İzləyənlər bilirlər, mən Azərbaycanın bir dövlət olaraq təsirinin artıq Qafqazın sərhədlərini aşdığını, bəlli güclərin özlərinin Qarabağ siyasətlərində gec-tez bu reallığı da nəzərə almalı olduğunu demişdim. Və onu da bildirmişdim ki, Silahlı Qüvvələr Günüylə bağlı çıxışında cənab Prezident "Qardaş ölkələr - Türkiyə başda olmaqla Pakistan və Əfqanıstan" ifadəsini elə-belə işlətmirdi".

**S.Alıyev əlavə edib ki, burada savaşın ilk günündən hər üç dövlətin Azərbaycana dəstəklərindən bəhs edilirdi.** Amma çox ehtimal ki, məhz bu üç dövlətin adının çəkilməsi həm də formalaşmaqda olan yeni geosiyasi konfiqurasiyada Azərbaycanın üçlüklə birgə hərəkət planlarının olduğunu göstərir: "Son zamanlar Türkiyə və Pakistanla hərbi-siyasi əməkdaşlıq müstəvisində aparılan intensiv danışıqlar da bunu təsdiqləyir. Yəni mən belə düşünürəm ki, Azərbaycan, Türkiyə və Pakistan əməkdaşlığı təkcə Qafqazla məhdudlaşmayıb, Xəzərin o tayında, ilk növbədə də Əfqanıstanda da davam etdiriləcək. Və fikrimcə, Azərbaycanın gələcəkdə Əfqanıstandakı qızılbaşlar, bəlkə, həm də xəzərilərlə daha sıx işləmək perspektivi yaranıb. Bu da qardaş ölkədəki vəziyyətin normallaşmasında müsbət rol oynaya bilər. Orasını da deyim ki, qızılbaşlar azərbaycanlılardır, əsasən strateji əhəmiyyət daşıyan şəhərlərdə- paytaxt Kabildə, Qəznidə və Qəndaharda yaşayırlar. Əksər beynəlxalq ekspertlər saylarının yarım milyonu keçməməsinə baxmayaraq onların Əfqanıstanda ən savadlı etnik qrup olduqlarını, peşəkarlıqlarıyla fərqləndiklərini, daha çox dövlət işlərində çalışdıqlarını bildirirlər. Xəzərilər isə türk və tacik etnosunun qarışığından yaranan şiə toplumudur ki, onların da sayı iki milyona yaxındır. Bu toplumun üzərində İranın təsirinin olması isə nə qərbdə arzuediləndir, nə də Əfqanısatana qonşu ölkələrdə. Hətta Tacikistan belə Əfqanıstana yanaşmada birgə əməkdaşlıqda İrandansa qardaş Türkiyəyə üstünlük verir. Bir sözlə, Pakistanın Əfqanıstandakı puştun çoxluq, Türkiyənin özbəklər və türkmənlər üzərində təsirini nəzərə alsaq, Azərbaycan da qızılbaşlar və xəzərilərlə fəal işləməklə bizə dost olan bir dövlətdə nəhayət ki, sülhün yaranmasını təmin edə bilərlər".

**Aynurə Pənahqızı**

# Baş nazirin müavini Bakıdan əliboş qayıtdı

## Sərhəddə baş verən insidentlərdə Rusiyanın barmağı var



"İkinci Qarabağ müharibəsindən səkkiz ay keçməsinə baxmayaraq 10 noyabr və 11 yanvar razılaşmalarına Ermənistan Rusiyanın təlimatı ilə əməl etmir". Bu sözləri politoloq Məhəmməd Əsədullazadə "Şərq"ə açıqlamasında deyib. O qeyd edib ki, bununla yanaşı Ermənistan Azərbaycana qarşı revanşist mövqeni davam etdirir və ilkin şərt olaraq Qarabağda ermənilərin statusunu irəli sürür. Həmçinin, Azərbaycan tərəfindən ikitərəfli danışıqların əleyhinə olaraq sərhədlərin delimitasiyası və demarkasiyasına atəşlə cavab verir: "Deməli olar ki, Ermənistan Zəngəzur dəhlizinin açılmasına və ümumiyyətlə, Azərbaycanla əlaqələrin bərpasında maraqlı deyil. Təbii ki, Ermənistanın bu siyasətinin arxasında Rusiya durur. Məhz Moskva Azərbaycanla Ermənistan arasında mümkün sülh müqaviləsinə qarşıdır. Həmçinin Zəngəzur dəhlizinin açılmasını regional maraqlarına təhdid hesab edir. Qeyd edim ki, Ermənistanla Azərbaycan arasında gərginliyə və regionda sülhün əldə edilməsinə əsas əngəl Rusiyanın sülhməramlı qüvvələrinin məsuliyyət zonasında erməni silahlı birləşmələridir. Bu gün silahlı ermənilərə Laçın dəhlizi vasitəsilə silah-sursat daşınır. Hətta digər iri çaplı silahların daşınması həyata keçirilir. Halbuki, 10 noyabr Bəyannaməsinin 4-cü bəndinə əsasən, silahlı erməni birləşmələri çıxarılmalıdır. Amma Rusiya buna getmir və Qarabağda böhranı davam etdirməkdə maraqlıdır".

Politoloq vurğulayıb ki, artıq qanunsuz silahlı erməni birləşmələri atəşkəsi mütəmadi pozur: "Şuşa ətrafında bölmələrimizə qarşı hücum edilib. Göründüyü kimi Rusiya sülhməramlı qüvvələri Azərbaycana qarşı erməni silahlılarının hücumunu təşviq edir və münaqişənin davam etməsi görüntüsünü təqdim edir. Məhz Şuşa Bəyannaməsinin tez bir zamanda imzalanması Rusiyanın bu kimi provakasiyalarına qarşı Türkiyənin bizim müdafiəmizi təşkil etməsinə əsaslanırdı. Rusiya tərəfi üçtərəfli bəyannamənin yerinə yetirilməsi əvəzinə artıq Qarabağda separatizmi qızışdırır və erməniləri silahlı hücuma təşviq edir. Belə olan təqdirdə azərbaycanlıların Xocavənd, Ağdərə və Xankəndiyə qayıtması mümkün olmayacaq. Halbuki, bu, 10 noyabr birgə bəyannaməsində azərbaycanlıların bu ərazilərə köçürülməsi və birgə yaşayış qeyd edilib. Artıq 7-ci bəndin təmini mümkün olmayacaq. Rusiya Prezidenti Vladimir Putin artıq öz imzasının mürəkkəbi qurumamış müqaviləni görməzdən gəlir. Ermənistan Baş naziri Paşinyanın Moskvaya səfəri, məhz əldə edilən razılaşmalara əməl edilməməsi təlimatının verilməsi idi. Çünki Rusiya Şuşa Bəyannaməsindən hiddətlənib, həmçinin Azərbaycanı KTMT-yə dəvət etmək niyyətindədir. Amma, Azərbaycan Rusiyanın layihələrində yer almayacaq. Rusiya Baş nazirinin müavininin Bakıya səfəri, Azərbaycanın KTMT müşahidə institutuna üzv olması üçün danışıqlar aparıb. Onun əliboş Bakıdan qayıtması, Şuşada ermənilərin bölmələrimizə qarşı hücumu ilə müşayiət olundu. Artıq Rusiya Qarabağda sülhməramlı deyil. Bunu Azərbaycan ictimaiyyəti bilməlidir".

**M.Əsədullazadə əlavə edib ki, Rusiya Qarabağda növbəti dəfə Ermənistan-Azərbaycan münaqişəsinin qızışdırılmasında katalizatordur:** "Prezident İlham Əliyev Ermənistanın növbəti dəfə mina xəritələrini verməməsini qeyd etdi. Mina xəritəsini verməyən Azərbaycanla sülh bağlamayacaq. Azərbaycan bundan sonra daha da ciddi Qarabağda silahlı erməni birləşmələrinin ləğvini tələb etməlidir və Laçın dəhlizində mülki post qurmalıdır. Vəziyyət qeyri-sabitdir. ABŞ, Rusiya və Fransa səfirlərinin Şuşaya getməməsi, Ermənistanı daha da mümkün anlaşmalara qarşı mövqe tutmağa rəvac verir. Hesab edirəm ki, Rusiya Ermənistanı silahlandıracaq və iki ölkə arasında sülhün bərqərar olmasına imkan verməyəcək".

**Aynurə Pənahqızı**

# İran vasitəsilə Naxçıvana quru yolu ilə reyslər bərpa olunub

**Xüsusi karantin rejimi ilə əlaqədar fəaliyyəti məhdudlaşdırılan Bakı-Naxçıvan-Bakı marşrut xəttinin bərpa edilməsinə dair Azərbaycan tərəfi İran İslam Respublikasına müraciət edib.**

Dövlət Avtomobil Nəqliyyat Xidmətindən "APA-Economics"ə verilən məlumata görə, Azərbaycan ilə İran arasında daşımalara dair mövcud razılığa əsasən Azərbaycan tərəfinin müraciətinə cavab olaraq Azərbaycan vətəndaşlarının 16 iyul 2021-ci il tarixindən Biləsuvar-Culfa sərhəd məntəqələri vasitəsilə Bakı-Naxçıvan-Bakı istiqamətində tranzit keçidləri bərpa olunur.

Azərbaycan vətəndaşlarının keçidi üçün neqativ PRC testinə ehtiyac yoxdur. Lakin zərurət olarsa sərhəddə yerləşən tibbi personal tərəfindən sərnişinlərdən test götürülə bilər.

Məcburi ehtiyacları qarşılamaq üçün sərhəddə- əvvəlcədən təyin olunmuş məkanlarda avtobusun hərəkətinə 15-20 dəqiqə fasilə veriləcək.

Eyni zamanda, iyul ayının 15-dən etibarən xüsusi karantin rejimi ilə əlaqədar olaraq fəaliyyəti məhdudlaşdırılan şəhərlərarası *(rayonlararası)* gecə reysləri də bərpa olunur.

Sərnişinlər həm Naxçıvan, həm də gecə reysləri üzrə biletləri əldə etmək üçün Bakı Beynəlxalq Avtovağzal Kompleksinə müraciət edə bilərlər.

# Göygöl sakini mal-qara otaran zaman minaya düşüb



**Göygöl sakini minaya düşüb. APA bildirir ki, hadisə rayonun Bənövşəli kəndində qeydə alınıb.**

Belə ki, kənd sakini, 1990-cı il təvəllüdlü Ocaqquliyev Ramal Kamal oğlu Bənövşəli yaylağında mal-qara otaran zaman minaya düşüb. O, aldığı xəsarətlərdən həyatını itirib.

*Hadisə yerinə təcili tibbi yardım briqadası cəlb olunub. Faktla bağlı araşdırma aparılır.*

# Xaricə istirahətə gedən olmayacaq

## Deputatlar tətillərini bu il Azərbaycanın bölgələrində keçirəcəklər

Milli Məclisin növbədənkənar sessiyası artıq başa çatıb. Parlament üzvləri iyulun 15-dən avqustun 30-dək tətildə olacaqlar.

Məzuniyyət üçün bölgələri seçənlər də var, xarici ölkələrə üz tutmaq istəyənlər də. Maraqlıdır, Milli Məclisin deputatları yay tətilini harada və necə keçirməyi planlayırlar?



"Şərq" olaraq bu suala cavab almaq məqsədilə parlament bir sıra üzvlərinə müraciət etdik.

**Deputat Fazil Mustafa tətil üçün xarici ölkələrə üz tutmayacaq: "Kitab çalışmaları üzərində işləyirəm.** Çalışıram ki, tətil müddətini boş keçirməyim. Sadəcə ola bilsin ki, bölgələrimizdən birinə 2-3 günlük gedərəm. Ancaq uzunmüddətli tətil planlamıram".

**Millət vəkili Ceyhun Məmmədov bildirib ki, rəsmi olaraq tətil başlasa da, hələ ki işlər çox olduğu üçün işləyirlər:** "Tədbirlərdə iştirak edir, görüşlər keçiririk. Hələ ki tətil barədə tam düşünmək imkanım olmayıb. Bəzi yarımçıq yazılar, kitablar var. Ola bilsin bir həftə Azərbaycanın bölgələrindən birində istirahət edək".

**Parlamentin digər üzvü Asim Mollazadə də tətili ölkəmizdə keçirməyi düşünür:** "Heç bir xarici ölkəyə getməyi planlamıram. Çünki işlər davam etməlidir".

**Deputat Elman Məmmədov hər zaman olduğu kimi bu il də yay tətilini Azərbaycanda keçirəcəyini söyləyib:** "Lakin əvvəlki tətillərdən fərqli olaraq, bu il imkan daxilində və icazə ilə işğaldan azad olunmuş ərazilərimizə getmək istəyərdim. Şuşa, Laçın, Kəlbəcər və digər torpaqlarımızı ziyarət etmək planlarım arasındadır. Tətilimi adi qaydada, əhalimizin kompakt məskunlaşdığı yerlərdə, xüsusilə Goranboy rayonu ərazisində və Bakı şəhərində keçirəcəm".

**Millət vəkili Cavid Osmanov məzuniyyət müddətini doğulub boya-başa çatdığı Ağdaş rayonunda keçirəcəyini deyib:** "Əsasən ölkə daxilində və Bakı şəhərində olacam. Əslində işlərin çoxluğundan məzuniyyət haqqında çox fikirləşmirik. Bu baxımdan deputat fəaliyyətimizi tətil müddətində də davam etdirəcəyik. Həmçinin çalışacam ki, istirahətə də bir az vaxt ayırım".

**Deputat Azər Badamov yay tətilimi doğulduğu və seçildiyi Qusar rayonunda keçirəcək:** "Tətil vaxtı seçicilərimlə bir arada olacağam və müəyyən görüşlərin keçirilməsinə də kifayət qədər vaxtım olacaq. Pandemiya davam etdiyindən başqa yerlərə səyahət etməyi planlaşdırmıram. Qusarın gözəl təbiəti var. Yay tətilini harda keçirməyi planlaşdıranlara da Qusarı tövsiyə edirəm".

**Yeganə Bayramova**

Mədəniyyət Nazirliyi ilə Milli Kitabxananın birgə həyata keçirdiyi Qarabağ üçün kitabtoplama kampaniyası getdikcə genişlənir. AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu və Hüseyn Cavidin Ev Muzeyi də kam-



# Kitab, kitabxana dövlətin varlığının sübutudur



## Qarabağ üçün kitabtoplama kampaniyasına çox insan qoşulacaq

paniyaya qoşulub. Əlyazmalar İnstitutu və Hüseyn Cavidin Ev Muzeyinin əməkdaşları "İşğaldan azad olunan bölgələrdəki kitabxanaların fondu üçün kitabtoplama kampaniyası"nın dağıdılmış kitabxanaların bərpa edilməsi istiqamətində vacib bir addım olduğunu qeyd ediblər.

Əlyazmalar İnstitutu 174 adda 471 nüsxə kitabı, Hüseyn Cavidin Ev Muzeyi isə 22 adda 65 nüsxə kitabı işğaldan azad olunan bölgələrdəki kitabxanaların fonduna hədiyyə edib.

**"Qanun" Nəşrlər Evinin direktoru, naşir Şahbaz Xuduoğlu "Şərq"ə açıqlamasında Qarabağ kitabxanaları üçün kitab toplanmasında iştiraka hazır olduqlarını və bunu böyük həvəslə icra edəcəklərini dedi:**

- Kampaniyadan xəbərdaram və əlbəttə, belə bir təşəbbüsü alqışlayıram. Amma bu kampaniya hələ Bakıda aparılır. Qarabağ kitabxana fondunun formalaşması Ağdama, Füzuliyə, Şuşaya... Qarabağa transfer olunanda mən də öz nəşriyyatımızın kitablarından mütləq hədiyyə edəcəm. İşğaldan azad edilmiş ərazilərdə hələ ki kitabxana yoxdur, səfər edənlər çoxdur, lakin kitabxana əməkdaşları ora səfər etməyib. Naşirlərə də hələ növbə çatmayıb. Kitabxanaların açılışı olanda biz də öz hədiyyəmizi edəcəyik. Hesab edirəm ki, necə ki, işğaldan azad edilmiş ərazilərimizdə hazırda dövlət səviyyəsində quruculuq, tikinti işləri aparılır, yol, işıq, su necə dövlət səviyyəsində çəkilirsə, kitabımız da o şəkildə bərpa olunmalıdır. Dövlət səviyyəsində. Kitab və kitabxana dövlətin varlığının sübutudur. Harda ki, kitabxana var, orda dövlət var. Rusiya imperiyası hansı torpaqları işğal edirdisə, orda dərhal kitabxana açırdı. Kitabxana təkcə kitablardan ibarət olmur. Orda əlyazmalar, arxiv materialları, fond, tarixi sənədlər də cəmlənir. Kitabxanaya sadəcə, kitab evi kimi baxsaq, yanılarıq. Kitabxanalara dövlət siyasətinin mühüm tərkib hissəsi kimi yanaşılmalıdır.

**Qeyd edək ki, Ş.Xuduoğlu doğma kəndi Hamarkənddə "Kitab qovşağı" köşklərinin qoyulmasına nail olub. Bununla bağlı danışan naşir bildirdi ki, kənddə kitabxana ləğv olunduğuna görə "Kitab qovşağı" köşkləri qoymaq qərarına gəlib:**

- Bir köşk qoymuşdum, hazırda işləyir, digər ikisi də artıq hazırdır. Sosial şəbəkədən hamıya müraciət edirik ki, kimin paylaşmaq istədiyi kitabları varsa, bu ünvana göndərsin: Yardımlı rayonu, Hamarkənd kəndi, "Kitab qovşağı". Öz kitabını göndərmək istəyənlər isə mütləq avtoqraf yazsın, hətta naməlum oxucuya məktub da yazıb kitabın arasına qoya bilər. Hər dəfə kəndə gedəndə qovşaqlara yeni kitablar aparıram. Bu kitablar satılmır, eləcə də alınmır. Sadəcə oxumaq üçündür. Bir nəfər götürüb oxuyur, sonra köşkə qoyur, başqa kitab götürür. Buna kitab dəyişmək də deyirlər. Oxuduğumu qoyub, oxumadığımı götürürəm. Kitab qovşaqlarını yaratmaqda məqsəd kitabxanası olmayan kəndlərimizi, məhəllələrimizi, bloklarımızı kitabla təmin etməkdir. Son illər çox sayda kitabxanalar bağlanıb, köhnə kitablar - kiril qrafikası ilə olanlar məhv edilib. Cəmiyyətimiz kitabsız bir mühitə yuvarlanıb. Qovşaqlar mühiti dəyişəcək, kitaba marağı artıracaq. Bəzən evində kitabı artıq görən insanlar onları aparıb zibilliyə atır. Yaxşısı, kitab qovşaqlarına qoyun, qoy kitab öz oxucusunu tapsın. Dünyada elə bir kitab yoxdur ki, onun ən azı üç oxucusu olmasın. Bu mənada, heç bir kitab atılmalı deyil.



*Şahbaz Xuduoğlu iştiraka hazır olduqlarını və bunu böyük həvəslə icra edəcəklərini deyib*

**Ş.Xuduoğlu qeyd etdi ki, "kitab köşkləri" təşkil etməkdə konkret məqsədləri var:**

- İddiamız, hazırkı kitab azlığı mühitində oxuya marağı artırmaq, oxunu təbliğ etmək, oxucuların sayını artırmaqdır. Hər kəs oxuduğu kitabı bir başqasıyla paylaşmaqla oxu mədəniyyətini inkişaf etdirə, oxucu sayını artıra bilər.

**Məlahət Rzayeva**

# İyul ayının 20 və 21-də məscidlərdə birgə Bayram namazları qılınacaq



**İyul ayının 20 və 21-də məscidlərdə birgə Bayram namazları qılınacaq.**

Bu barədə Qafqaz Müsəlmanları İdarəsinin tövsiyələrində deyilir.

*Qeyd olunur ki, bu tövsiyələr pandemiya dövründə yaranmış xüsusi karantin qaydalarına əməl olunması və insanların sağlamlığının qorunması məqsədilə təqdim olunur.*

# Ölüm faktı qeydə alınmayıb

## Son sutkada 146 nəfər koronavirusa yoluxub, 73 nəfər sağalıb

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 146 yeni yoluxma faktı qeydə alınıb, 73 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19-dan ölüm faktı qeydə alınmayıb.

İndiyədək ölkədə ümumilikdə 337 602 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 330 946 nəfər müalicə olunaraq sağalıb, 4988 nəfər vəfat edib, aktiv xəstə sayı 1668 nəfərdir.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 9046, ötən müddət ərzində isə ümumilikdə 3 876 962 test aparılıb.

# Şadlıq saraylarında toylarda xüsusi sanitar rejim tətbiq ediləcək

**Azərbaycan Respublikasının baş dövlət sanitariya həkimi "Sanitariya-epidemioloji salamatlıq haqqında" qanunun tələblərinə uyğun olaraq "Şənlik mərasimlərində koronavirus (COVID-19) infeksiyasının idarə olunmasına dair metodiki göstərişlər"i təsdiq edəcək. APA-nın məlumatına görə, baş nazir Əli Əsədov bununla bağlı qərar imzalayıb.**

Qərara əsasən, koronavirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində elan edilmiş xüsusi karantin rejimi dövründə xüsusi sanitar rejim tətbiq edilən sahələrin sayı artırılıb. Şənlik mərasimləri keçirilən obyektlər də bura əlavə edilib.

**Azərbaycanda COVID-19-un "Delta" və "Alpha" variantları aşkar olunub. Bu barədə Səhiyyə Nazirliyi və TƏBİB-nin birgə bəyanatında deyilir.**

Azərbaycanda aşkar olunan koronavirusun "Delta" (B.1.617 ) və "Alpha" (B.1.1.7 ) ştammları son dövrlərdə ölkəyə xaricdən gələn 31 nəfərdən alınan nümunələrdə aşkar olunub. Koronavirusun bu variantlarının əsas xüsusiyyəti kimi onların sürətlə yayılmasıdır. Artıq bir neçə müddət idi ki, bəzi ölkələrdə "Delta" ştammı yayılırdı. Məhz bu durum cəmiyyətimizdə müxtəlif suallar yaradırdı. Hər kəs koronavirusun bu variantının ölkəmizdə aşkarlanıb-aşkarlanmayacağına dair fikir mübadiləsi aparırdı.

# "Delta" aşkarlansa da sərt qapanmaya ehtiyac yoxdur

## Bu, insanların psixikasına ciddi zərbə vurur və dərin izlər buraxır



**Sərt qapanmaların əleyhinə olduğunu deyən tanınmış həkim-psixoterapevt Əli Nağıyev "Şərq"ə bildirib ki, belə qapanmalar ölkəmiz üçün iqtisadi zərbədir**: "Sərt qapanmalar həmçinin insanların psixikasına ciddi zərbə vurur və dərin izlər buraxır. Beləliklə, post-travmatik stres pozuntusu olan xəstələrin sayı çoxalır. Bu da ölkəmizin ümumi inkişafına müsbət təsir etmir. Düşünürəm ki, şəxsi məsuliyyətə köklənmək və vaksinasiyanı tamamlamaq lazımdır.

Əhalimizin mütləq əksəriyyəti vaksinasiya olunmalıdır ki, sərt qapanmalar olmasın. Ən böyük tələb maska və sosial məsafədən qabaq vaksinasiya olmalıdır.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) və dövlətimizin müvafiq strukturlarının tələblərinə uyğun olaraq vaksinasiya davam etdirilməlidir. Təbii ki, burada da məcburiyyət yox, könüllülük və məsuliyyətə üstünlük verilməli, vətəndaşlarımız vaksinasiyaya təşviq edilməlidir. Fikrimcə, məsələnin həlli belə olmalıdır. Yoxsa ömrü boyu qapanmalara getməklə həm iqtisadi, həm sosial, həm də psixoloji zərbələr alırıq".

**Yeganə Bayramova**

# Minalar bərpa işlərinə mane olur

## Ermənistanın bütün fitnəkarlığı ifşa edildi

Azərbaycanın xarici siyasətində beynəlxalq qurumlarla əməkdaşlıq, birgə layihələrin icrası prioritet yerlərdən birini tutur. Hazırda Azərbaycan Birləşmiş Millətlər Təşkilatı, Qoşulmama Hərəkatı, Türk Şurası, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq qurumlarla sıx əməkdaşlıq edir. Məhz bu səbəbdən bu təşkilatlara üzv ölkələr hər zaman Azərbaycanın haqq mövqeyini dəstəkləyirlər. Bu həm də Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu xarici siyasətin göstəricisidir.



Millət vəkili Ceyhun Məmmədov deyib ki, əməkdaşlıqla yanaşı Azərbaycan bu qurumlara, xüsusilə, Qoşulmama Hərəkatına üzv dövlətlərə öz dəstək və yardımlarını heç zaman əsirgəmir. Deputatın sözlərinə görə, pandemiya dövründə Azərbaycan bu quruma üzv bir çox dövlətlərə humanitar və maliyyə yardımları göstərdi: "Bu məsələ ümumi əməkdaşlığa öz ciddi təsirini göstərdi. Həmin ölkələr Azərbaycanın ağır gündə onların yanında olmasını, dəstək olmasını yüksək qiymətləndirirlər. Onlar müxtəlif tədbirlərdə bu mövqeyi dəfələrlə açıq ortaya qoyublar. Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının aralıq konfransında videoformatda çıxışında bir çox vacib məqamlara toxundu. O, 2020-ci ilin Azərbaycan üçün əlamətdar il olduğunu xüsusi vurğuladı. 30 ilə yaxın müddətdə Ermənistanın ərazimizin təqribən 20 faizini işğal altında saxladığını, azərbaycanlılara qarşı etnik təmizləmə apardığını, bir milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkünə çevrildiyini, 1992-ci ilin fevralında Xocalı soyqırımını törətdiyini, 106-sı qadın, 63-ü uşaq olmaqla, yüzlərlə dinc insanı qətlə yetirdiyini, Xocalı soyqırımının 13 ölkə tərəfindən tanındığını qeyd etdi. Prezident onu da bildirdi ki, 1993-cü ildə BMT Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul olunub. Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı və ATƏT daxil olmaqla, bir sıra nüfuzlu beynəlxalq təşkilatlar da buna bənzər qərar və qətnamələr qəbul edib. Lakin Ermənistan aparıcı beynəlxalq təşkilatların tələblərinə məhəl qoymayıb. Beləliklə, Ermənistanın yeganə məqsədi status-kvonun saxlanılmasından və işğalın möhkəmləndirilməsindən ibarət olub".

Parlament üzvü vurğulayıb ki, ölkə başçısı çıxışında işğal dövründə Ermənistanın Azərbaycanın işğal edilmiş ərazilərində şəhər və kəndləri, bütün mədəni və dini abidələri qəsdən dağıtması faktlarına da geniş toxundu: "Hətta qəbiristanlıqların yerlə-yeksan edildiyini, Ermənistanın məqsədinin əsrlər boyu həmin ərazilərdə yaşamış azərbaycanlıların izini silmək olduğunu, məscidlərdən donuz və inək tövləsi kimi istifadə etdiyini bildirdi. Prezident qeyd etdi ki, Ağdam şəhəri o dərəcədə dağıdılıb ki, onu "Qafqazın Xirosiması" adlandırırlar. Füzuli şəhəri işğaldan azad olunandan sonra Ordumuz orada Azərbaycan bayrağını qaldırmaq üçün bir dənə də salamat bina tapa bilmədi. Ermənistanın vəhşiliyinin miqyası bu dərəcədə böyükdür. Dövlət rəhbərinin toxunduğu digər vacib məsələ Ermənistanın basdırdığı çoxsaylı minaların işğaldan azad olunmuş ərazilərdə bərpa işlərinə yaratdığı çətinlikdir. Prezident 2020-ci il noyabrın 10-da Ermənistan tərəfindən kapitulyasiya aktının imzalanmasından sonra mina partlaması nəticəsində 30-a yaxın Azərbaycan vətəndaşının həlak olduğunu dedi. 100 nəfərdən çox insanın yaralandığını, minaların azad olunmuş ərazilərdə yenidənqurma prosesini və məcburi köçkünlərin evlərinə qayıdışını ləngitdiyini bəyan etdi. Ölkə başçısı Ermənistanın mina xəritələrini verməkdən boyun qaçırdığını, beynəlxalq ictimaiyyətin Ermənistanı azad olunmuş bütün ərazilərin mina xəritələrini Azərbaycana verməyə məcbur etməsinin vacibliyini xüsusi vurğuladı. Bütün beynəlxalq platforma və tədbirlərdə olduğu kimi bu konfransda da Prezident Ermənistanın Azərbaycan xalqının başına gətirdikləri müsibətlər, işğal etdikləri ərazilərdə törətdikləri vəhşiliklər barədə tədbir iştirakçılarını ətraflı məlumatlandırdı".

**İsmayıl**

# Yeni plan qurulub

## Vaşinqton Türkiyənin Əfqanıstanda "Taliban"la üz-üzə gəlməsində maraqlıdır

"Taliban" Türkiyəyə hərbçilərini Əfqanıstandan çıxarmaqla bağlı çağırış edib. Bəyanatda bildirilib ki, BMT və beynəlxalq ictimaiyyətin dəstəklədiyi və Türkiyə də daxil olmaqla, əksər ölkələr tərəfindən alqışlanan Doha razılaşmasına əsasən, bütün xarici dövlətlərin qüvvələri Əfqanıstandan geri çəkilir. Ancaq razılaşmaya baxmayaraq, Türkiyə hökuməti ABŞ-la razılaşaraq öz hərbi qüvvələrini Əfqanıstanda saxlayır. "Taliban" bildirib ki, əgər Türkiyə ordusu Əfqanıstanda qalsa, onlara hücum edəcəklər.



"Taliban"ın bəyanatında bildirilib ki, Türkiyə rəhbərliyinin qərarı laqeydlikdir, suverenliyi, ərazi bütövlüyünü pozur və əfqanların milli maraqlarına ziddir. "Taliban" bəyanatda, həmçinin, Türkiyəni qəbul etdiyi qərardan imtina etməyə çağırıb.

**Mövzu ilə bağlı siyasi-şərhçi Turan Rzayev "Şərq"ə açıqlamasında deyib ki, Türkiyə Mərkəzi Asiya ölkələri ilə hərbi əməkdaşlığı genişləndirir. O qeyd edib ki, xüsusilə bu prosesin Türkiyə ordusunun Əfqanıstanda qalmaq qərarı verdiyi bir zamanda baş verməsi olduqca maraqlıdır:** "Məsələ orasındadır ki, "Taliban" hərəkatının Əfqanıstanda hakimiyyəti ələ alacağı və paytaxt Kabili ələ keçirəcəyi artıq heç kəsə sirr deyil. Məlum idi ki, 20 illik mübarizədən sonra ABŞ və NATO qüvvələrinin Əfqanıstandan çıxması "Taliban"ın da güclənməsi ilə paralellik təşkil edəcək. Son günlər "Taliban"ın ard-arda iri yaşayış məskənlərini ələ keçirməsi də ondan xəbər verir ki, "Taliban" Əfqanıstanı ələ keçirmək üçün əsaslı addımlar atır. ABŞ və NATO qüvvələri Əfqanıstandan çıxsa da, Türkiyə qoşunları bu ölkədə qalacaq. Lakin bu, heç də ABŞ-ın müttəfiqi adlandırdığı Türkiyəni dəstəkləməsi deyil. Vaşinqton faktiki olaraq Türkiyəni Əfqanıstanda "Taliban"ı tənzimləmək üçün saxlayıb. Çünki rəsmi Vaşinqton 20 ildən artıq bir müddətdə mübarizə apardığı "Taliban"ın birdən-birə bu qədər güclənməsinə də razı ola bilməz. Lakin bununla belə bağlı qapılar ardında keçirilən görüşlərdə Vaşinqton "Taliban"la daha böyük məsələlər ətrafında razılığa gəlib. Söhbət Əfqanıstanda hakimiyyətin "Taliban"a güzəştə gedilməsi qarşılığında hərəkatın Mərkəzi Asiya və Çinin Uyğur vilayətində radikal islamçılığı gücləndirməsi siyasətindən gedir. Yəni "Taliban" qarşısında qoyulan öhdəlik sosial vəziyyəti iqtisadi imkanları zəif olan Mərkəzi Asiya ölkələrində dini radikalizmi artırmaq, beləcə Çinin "Bir kəmər, bir yol" layihəsinin şah damarı olan Mərkəzi Asiya xəttinin qarşısını almaqdır".

**Analitik diqqətə çatdırıb ki, Türkiyə ABŞ-ın pərdəarxası dəstəyi ilə "Taliban"ın Mərkəzi Asiyaya sızmaq, burada dini radikalizmi artırmaq istədiyini yaxşı bilir:** "Lakin Ankaranı "Taliban"la bağlı narahat edən əsas məsələ tamamilə fərqlidir. Düzdür, Türkiyənin də Mərkəzi Asiya ölkələri ilə bağlı planları var. Xüsusilə də uzun illərdir türk dünyasının vahid arzusu olan TDƏŞ və ya hər kəsin bildiyi kimi Turan İttifaqını yaratmaq. Bundan başqa, Çinin "Bir kəmər, bir yol" layihəsi də Ankaranın diqqət mərkəzindədir. Lakin Ankara anlayır ki, "Taliban"ın Mərkəzi Asiyaya sızması hər şeydən öncə illərdir mübarizə apardığı Fətullah Gülən və onun FETÖ terror birləşməsinin güclənməsinə səbəb ola bilər. Məsələyə daha geniş müstəvidən baxsaq, deyə bilərik ki, Türkiyə də bu gün FETÖ-yə qarşı ciddi zərbə vurulsa da, Gülənçilərin Mərkəzi Asiyada nüfuzu hələ də güclüdür. Təsadüfi deyil ki, Ankara uzun müddətdir Mərkəzi Asiya ölkələrində, xüsusilə də Qırğızıstanda fəaliyyət göstərən FETÖ-çülərə qarşı sözün əsl mənasında ov başladıb. Türkiyənin Müdafiə naziri Hulusi Akarın bir müddət öncə Qırğızıstan və Tacikistana səfər etməsi də məhz bu məsələ ilə bağlı idi. Məsələ ondadır ki, Akarın bu səfəri ilk başda Qırğızıstanla Tacikistan arasındakı münasibətlərdə sərhəd gərginliyi ilə əlaqələndirilsə də məsələ tam fərqli idi. Qırğızıstanın Türkiyənin hərbi və maliyyə dəstəyinə ehtiyacı var. Bunu Türkiyə də yaxşı bilir. Türkiyə hər ikisini təmin edəcək. Lakin Türkiyənin də öz növbəsində Qırğızıstandan gözləntiləri var. Belə ki, Türkiyə bu ölkədə fəaliyyət göstərən Fətullah Gülən tərəfdarlarının təhvil verilməsini istəyir. Qırğızıstan Türkiyənin bu istəyini isə çox keçmədi ki, gerçəkləşdirdi. 21 ildir Qırğızıstanda yaşayan və FETÖ-nün Mərkəzi Asiya üzrə baş direktoru Orxan İnandı 1 iyunda Bişkekdə saxlanılaraq Türkiyəyə gətirildi. Sadır Japarov ölkəsində Gülən tərəfdarları ilə mübarizə aparacağı vədini yerinə yetirir. Ankara ABŞ-ın dəstəyi ilə "Taliban"ın Mərkəzi Asiyaya sızıb, burada dini radikalizmi artıracağını bilir. Lakin "Taliban"ın ideologiyasında peştun milliyyətçiliyin dindən ön planda olması hərəkatın bu regiona sızmasına ciddi maneədir. Bu mənada "Taliban"a Mərkəzi Asiyada ABŞ-ın dəstəklədiyi digər bir terrorçu qrup Fətullah Gülənin FETÖ terror təşkilatı yardım edəcək. Yəni FETÖ və "Taliban" ABŞ maraqları üçün Mərkəzi Asiyada dini radikalizmi artırmaq üçün birlikdə hərəkət edəcək. Onsuz da illərdir FETÖ-nün belə bir dəstəyə ehtiyacı var. Çünki FETÖ ideoloji cəhətdən gücü olsa da hərbi baxımdan gücü yoxdur. "Taliban"da isə vəziyyət tam tərsidir. Silah və döyüşçü baxımdan lazımi resursu olan "Taliban"ın Mərkəzi Asiyada ideoloji dəstəyi yoxdur. Yəni hər iki terrorçu qrup Mərkəzi Asiyada ABŞ-ın pərdəarxası dəstəyi ilə gücünü birləşdirəcək. Nəticə etibarilə ABŞ Türkiyənin Əfqanıstanda qalıb "Taliban"a nəzarət etməsini istəsə də, Mərkəzi Asiyada nüfuzunu artırmasını istəmir. Təsadüfi deyil ki, bütün bu hadisələrin fonunda Türkiyə ordusu Əfqanıstanda qalsa, "Taliban" onlara hücum edəcək bəyanatını verdi. Yəni rəsmi Vaşinqton Ankaranın Mərkəzi Asiyadakı planlarını pozma ehtimallarının qarşısını almaq üçün Əfqanıstanda "Taliban"la üz-üzə gəlməsində maraqlıdır. Beləliklə, Ankara Əfqanıstanda "Taliban"la mübarizə apardığı bir zamanda ABŞ-da Mərkəzi Asiya ilə bağlı planlarını yerinə yetirə biləcək. Ankaranın nə edəcəyini isə yaxın günlərdə baş verəcək siyasi proseslər müəyyənləşdirəcək".

**Aynurə Pənahqızı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması**

# Ən böyük məsuliyyət valideynlərin üzərinə düşür

*Qız övladlarını məktəbdən yayındıraraq erkən nikaha cəlb edən şəxslər cinayət məsuliyyətinə cəlb edilməlidir*

Bu günləri erkən nikah sosial problem kimi dünyada aktuallıq kəsb edən məsələlərdən biridir. Məlumdur ki, erkən nikah 18 yaşdan aşağı şəxslərin nikaha daxil olmalarıdır. Azərbaycan qanunvericiliyə əsasən,18 yaşına çatmış vətəndaşlarımız evlənmək və ailə qurmaq hüququna malikdirlər. Ölkəmizdə erkən nikah və onun doğurduğu fəsadlar hər zaman diqqətçəkən mövzulardan olub. Zaman-zaman bu fəsadların səbəb olduğu faciələr, problemlər haqqında çox danışılıb.

Lakin çox təəssüflər olsun ki, bütün maarifləndirmə tədbirlərinə baxmayaraq ölkəmizdə belə hallara yenə də rast gəlinir. Belə ki, Şəkinin Kiçik Dəhnə kəndində 2005-ci il təvəllüdlü M.H ilə 1991-ci il təvəllüdlü M.S-nin evləndirilməsi faktı aşkarlandı. Daha öncə də Azərbaycanın müxtəlif bölgələrində oxşar durumlar olub, hətta etnik azərbaycanlıların yaşadığı Gürcüstanın müxtəlif bölgələrində də erkən nikah mövzusu tez-tez gündəmə gəlib. Aparılan araşdırmalar nəticəsində bəlli olur ki, erkən nikaha daxil olma bəzən qızların öz istəkləri, bir sıra hallarda valideynlərinin təzyiqi, ailədə maddi vəziyyətin çətin olması və digər səbəblərdən baş verir. Nəticədə cəmiyyətə inteqrasiya edilməkdən məhrum olunan qız uşaqları bəzən intihara əl atır, ağır psixoloji sarsıntı keçirirlər. Təbii ki, burada ən böyük məsuliyyət valideynlərin üzərinə düşür. Valideynlərin bu addımı atmasına səbəb bəzən maddi durumun aşağı olması, bir sıra hallarda isə qız uşaqlarına "ağır yük" kimi baxmalarıdır.

**Mövzu ilə bağlı "Kimsəsiz Uşaqların Sosial Müdafiəsi" İctimai Birliyinin sədri Lamiyə İsazadə "Şərq"ə açıqlama verib. O qeyd edib ki, bu günləri Azərbaycanda erkən nikah hallarına rast gəlinməsi çox təəssüfedicidir:** "Erkən nikah doğurduğu fəsadlara və cəmiyyətə vurduğu ziyana görə dövrümüzün mühüm və ən aktual problemi olaraq qalmaqdadır. Bilirsiniz ki, erkən nikah fizioloji olaraq qadınların istismar edilməsi, onların hüquqlarının pozulmasıdır. İlk növbədə valideynlər anlamalıdır ki, erkən yaşda nikaha girmək övladlarına potensial olaraq müxtəlif cür ziyan vura bilər. Çünki bu cür nikahların həm fizioloji, həm də psixoloji fəsadları olduqca böyükdür. Bilirsiniz ki, həyatı kifayət qədər dərk etməmiş yeniyetmələrin erkən ailə qurması sonradan onlarda müxtəlif travmalar yaradır. Çox təəssüf ki, son illər ölkəmizdə həm erkən nikahların, həm də yeniyetməlik dövründə dünyaya övlad gətirən qadınların sayının artdığını görürük. Təbii ki, bu, danılmaz faktdır. Amma nəzərə alaq ki, gələcək nəsillərimizin sağlamlığı gələcək anaların sağlamlığından, psixoloji durumundan asılıdır. Məlumdur ki, yeniyetmə qızların orqanizminin inkişafda olan dövründə övlad dünyaya gətirməsi həm ana, həm də övlad üçün həyatı təhlükə daşıyır. Çox zaman bu kimi hallar həm ana, həm də körpənin ölümü ilə nəticələnir. Təəssüflər olsun ki, müasir dövrdə də əksər valideynlər övladlarının həyatını heçə sayaraq onları erkən nikaha məcbur edirlər. Erkən nikahı psixoloji aspektdən dəyərləndirsək görərik ki, həmin yeniyetmələr nikahdan və ya uşaq dünyaya gətirdikdən sonra onlarda obsessiv-kompulsiv pozuntu əlamətləri, depressiya, təşviş pozuntuları, panik ataklar və s. kimi psixoloji xəstəliklər təzahür edir".



**L.İsazadə vurğulayıb ki, erkən ailə quran yeniyetmələrin təhsildən yayınması da olduqca ciddi problemdir:** "Məlumdur ki, təhsildən yayınan yeniyetmə gələcəkdə müxtəlif problemlər qarşısında aciz qalır və bu acizlik də onu intihara sürükləyir. Qızlarımız nə qədər təhsilli, dünyagörüşlü olarsa, onların yetişdirdiyi övlad da bir o qədər savadlı və cəmiyyət üçün faydalı olar. Bunu nəzərə alıb, gələcəyin anası olacaq qızlarımızın kamil, intellektli, təhsilli insan kimi yetişməsinə şərait yaratmaq lazımdır. Bu gün boşanmaların sayının pik həddə çatması, uşaq evlərində uşaqların və insan alverinin qurbanı olan qadınların sayının artması daha çox erkən nikahların təsirindən irəli gəlir".

**Birliyin sədri əlavə edib ki, bu gün əsas məsələ bu sahədə qanunun aliliyini təmin etməkdir:** "Qız övladlarını məktəbdən yayındıraraq erkən nikaha cəlb edən şəxslər cinayət məsuliyyətinə cəlb edilməlidir. Çünki bu prosesdə iştirak edən valideynlər və əlaqədar şəxslər özlərində məsuliyyət hiss etməli və hüququn aliliyindən kənarda qalmamalıdırlar. Hesab edirəm ki, sosial-psixoloji dəstəyə ehtiyacı olan qız uşaqlarına diqqət daha da artırılmalı və onların cəmiyyətə adaptasiya olunması yolunda səylər gücləndirilməlidir. Xüsusilə qızların təhsilə cəlb edilməsi istiqamətində vacib addımlar atılmalıdır. Gənclər üçün erkən nikahın fəsadlarını vizual şəkildə çatdıra bilən sənədli filmlər hazırlanmalı, sosialyönümlü reklam çarxları çəkilməlidir. Unutmamalıyıq ki, gələcəyimiz bu gün qurulan sağlam ailələrdən, sağlam övladlardan asılıdır. Ailə genefondumuzu qorumaq üçün bütün səylərimizi gücləndirməliyik".

**Aynurə Pənahqızı**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# İndi saxta diplomlarla bağlı problemlər nəzərəçarpacaq dərəcədə azalıb

*Əvvəllər küçələrdə, vitrinlərdə, mağazalarda elanlar vurulurdu*

Ali məktəblərə qəbul nəticələrinin açıqlanması xaricdə təhsil vəd edən fırıldaqçı şəbəkəni yenidən hərəkətə gətirib. Bu məsələdə valideynlərin son dərəcə diqqətli olması vacibdir. Hazırda xarici ölkələrdə təhsil alan azərbaycanlı tələbələrin sayı 40 minə yaxındır. Onlardan 21 mini qardaş Türkiyədə, 8 mini Ukraynada, 6 mindən çoxu Rusiya, Gürcüstan universitetlərində təhsil alır.



Zaman-zaman müxtəlif ölkələrdə təhsil alan tələbələrimizin diplomu ölkəmizdə tanınmır. Bu, xaricdəki təhsilin bəlkə də əsas problemlərindən biridir. Səbəb isə bəzi fırıldaqçı şəbəkənin prosesdə əlinin olmasıdır.

**Mövzu barədə "Şərq"ə danışan təhsil üzrə mütəxəssis Nadir İsrafilov bildirib ki, belə bir "xroniki xəstəliyi" birdən-birə aradan qaldırmaq düşündüyümüz qədər də asan məsələ deyil:** "Bu gün Azərbaycanın təhsil sahəsində çoxşaxəli islahatların aparılmasına baxmayaraq, bəzi problemlər hələ də qalmaqdadır. Hazırda təhsil sektorunda saxta və ya ixtisasına uyğun olmayan sənədlə işləyən müəllimlərə rast gəlmək olur ki, bunu Təhsil Nazirliyi rəsmiləri də dəfələrlə etiraf ediblər. Ümumiyyətlə, saxta diplom məsələsi bu günün problemi olmayıb, artıq neçə onilliklərdir ki, gündəmdə olan məsələdir. Hətta bununla bağlı böyük rəqəmlər göstərilirdi. Dövlət Proqramı istisna olmaqla yüzlərlə elan və reklam yolu ilə xaricə göndərişlərə nəzarət yox idi. Bir çox valideyn isə ucuz qiymətlərə aldanıb, övladlarını xaricdə təhsil almağa təhrik edirdilər.

Nəticədə valideynlərin pulu batır, bir sıra işbazlar isə bundan lazımınca yararlanırdılar. Saxta diplomlar əsasən köçürmələrlə daha çox bağlı idi. Qəbul imtahanında keçid balını toplaya bilməyən gənc xarici ölkələrin, xüsusən də Rusiya, Ukrayna, Gürcüstan universitetlərinə attestat qiymətləri əsasında qəbul olunur. Sonra isə Azərbaycanın dövlət universitetlərinə və ya rayon filiallarında birbaşa 2-ci kursa qəbul olunduqlarına ümid edirdilər. Hansısa bir xarici ölkədən gələn diplom üçün həmin universitetə sorğu göndərilib, dəqiqləşdirmə aparıldıqda məlum olurdu ki, həmin Universitetin lisenziyası belə yoxdur".

**Ekspert qeyd edib ki, bu sahədə görülən işlər sayəsində əvvəlki dövrlə müqayisədə saxta diplomla bağlı problemlərin sayı nəzərəçarpacaq dərəcədə azalıb:** "Saxta diplomların əksəriyyəti diaqnostik qiymətləndirmədə müəyyən olundu, hazırda da araşdırmalar davam etdirilir. Bir neçə ildir ki, Təhsil Nazirliyinin Akkreditasiya və Nostrifikasiya şöbəsində diplomları bizdə tanınan 500 universitetin siyahısı hazırlanıb. Xaricdə təhsil almaq istəyən şəxslər həmin bölməyə girib baxa və hansı universitetlərin diplomlarının bizdə tanındığını öyrənə bilərlər. Amma əvvəllər belə bir şey yox idi. Küçələrdə, vitrinlərdə, mağazalarda elanlar vurulurdu. Həmin elanlara əsasən tələbələr xaricdə təhsil almağa gedir və ordan qayıdanda da ortada qalırdılar. Göründüyü kimi xarici diplomların tanınıb-tanınmaması məsələsi zaman-zaman müzakirə olunub və bu günün özündə də bu kimi hallar gündəm olaraq qalmaqda davam edir".

**Yeganə Bayramova**

# Jurnalistlər istirahətə yollanır





## Redaksiyalarda artıq məzuniyyət ab-havası başlayıb

Yay fəslinin gəlməsi çoxları kimi bizi, jurnalist həmkarlarımızı da sevindirir. Nəhayət, bir müddətlik informasiyadan uzaq qalacağımız, gündəmi, az qala, addımbaddım izləməyəcəyimiz günlər səbirsizliklə gözləyirik. Oxucu sual verə bilər ki, məgər informasiyadan tamamilə təcrid olunmaq mümkündür? Əlbəttə, yox. Amma əlimizdən gəldiyi qədər buna çalışacağıq. Nə edək, "IV hakimiyyət" olmaq məhz bunu tələb edir, yəqin...

”Şərq” olaraq müxtəlif redaksiyalardakı həmkarlarımızla söhbətləşib, məzuniyyətə hansı qaydada çıxacaqlarını öyrəndik.

**”Report” informasiya agentliyinin əməkdaşı Gülşən Cəmil artıq məzuniyyətdə olduğunu bildirib:** ”Elə bu günlərdə istirahət edirəm. Bizdə ildə iki dəfə məzuniyyət verilir. Müddət iyirmi bir gündür. Deyilib ki, maaşınızdan pul tutulmayacaq. Nə qədər doğru olduğunu işə çıxandan sonra biləcəm (gülür)”.

**APA TV-nin aparıcısı Mir Çingiz Ağazadənin sözlərinə görə, bu məsələdə heç bir problem yaşanmır:** ”Biz aparıcıların istirahət müddəti 24 gündür və ay sonu əməkhaqqını tam alırıq. Məzuniyyətə çıxmazdan öncə ərizə yazmaq vacibdir. Bu sənəd məzuniyyətə gedən şəxsin rəsmiləşdirmə göstəricisidir. Nə xüsusi maddə, nə də tələb-şərt yoxdur. Çəkilişləri bitən əməkdaş yay fəslinin uyğun bir ayını seçib istirahətə yollana bilər. Təbii, bəzən bütün aparıcılar sözləşib məzuniyyətə eyni vaxtda da çıxa bilər. Bu, sezondakı iş qrafikinin ağırlığından, ehtiyat proqramların çəkilib-çəkilməməsinə bağlıdır və sırf işçilərin öz arasında dəqiqləşdirilən haldır. Məzuniyyət dövründən əlavə istirahət götürmək istəyənlər isə ödənişli dincələ bilərlər. Bu, sezondakı iş qrafikinin ağırlığı ilə ehtiyat proqramların çəkilib-çəkilməməsinə bağlıdır və sırf işçilərin öz aralarında dəqiqləşdirdiyi bir məsələdir”.

**ARB TV-nin əməkdaşı Şəbnəm Qurbansoy da redaksiyada prosesin mövcud qaydalara uyğun olduğunu söyləyib:** ”Bizə məzuniyyət bir ay verilir. Maaşımızı isə vaxtlı-vaxtında, kəsirsiz alırıq”.

**”Teleqraf.com”un əməkaşı Mansur Rəğbətoğlu məzuniyyətə o qədər də həvəslə çıxmadığını vurğulayıb:** ”İyirmi bir günlük məzuniyyətdə oldum, artıq qayıtmışam. ”Məzuniyyət” deyəndə ki, bir neçə günlük işə fasilə verdim, sonra qayıtdım. Hava bürkü, hər yer virus, qaydalar, qadağalar, dünya qazan kimi qaynayır, nə bilim... Bütün bu və digər şeylər adamı o qədər tükədir, tənbəlləşdirir ki, heç məzuniyyətə çıxmağa da həvəs qalmır. Məzuniyyətə çıxanda əməkhaqqımı alıdım. Redaksiyanın digər əməkdaşları üçün də qayda belədir. Artıq əməkdaşlarımız bir-bir məzuniyyətə çıxmağa başlayıblar”.

**”Ayna- Zerkalo” qəzetinin müxbiri Aləmdə Nəsib də fikirlərini bölüşüb:** ”Məzuniyyətə çıxmaqda maraqlı olmasam da, bir həftəlik, on günlük işdən uzaqlaşmaq yaxşı təsir edər deyə düşünürəm. Redaksiyadan da bu müddətə istədiyim vaxt istirahət edə biləcəyimi dedilər. Həmin günlərin maaşıma təsiri olmayacaq”.

**”Yeni Müsavat” media holdinqinin əməkdaşı Cavanşir Abbaslının sözlərinə görə, redaksiyada məzuniyyət ab-havası artıq başlayıb:** ”Məzuniyyətə gedənlər də var, hazırlaşanlar da. Kütləvi şəkildə istirahətə getmələr olmasın deyə məsləhətləşmələrlə həmkarlar məzuniyyətə gedirlər. Əsasən eyni sahədən yazanlar bu cür edirlər. Məzuniyyət müddəti 21 gündür. Təbii ki, hər zaman olduğu kimi indi də məzuniyyətə gedəndə əməkhaqqı veriləcək”.

**Kənan Novruzov**

## “Narkoz tromba səbəb olmur"

### Əməliyyat stolunda keçinən xəstənin işi araşdırılmalıdır



**Bakı şəhəri, Xəzər rayonunda yerləşən 26 saylı Birləşmiş Şəhər Xəstəxanasında ölüm hadisəsi baş verib.**

Bu barədə ölən şəxsin oğlu, vətəndaş Vüsal Hüseynov məlumat verib. O bildirib ki, atası 56 yaşlı Həsənağa Həsənov həkim səhlənkarlığı nəticəsində vəfat edib: ”Dünən atam səhər öd daşı əməliyyatına girməli idi. Əməliyyat öncəsi bütün analizləri verdik, hər şey normal idi. Deyə-gülə əməliyyata saldıq. Heç 10 dəqiqə keçməmiş ölüm xəbəri gəldi”. Şikayətçinin iddiasına görə, atası narkozun çox verilməsi səbəbindən vəfat edib: ”Narkoz verən həkimin adı da Esmiradır. Hadisədən sonra prokurorluq əməkdaşları gəldi, meyit yarıldı və ekspertiza edildi. Cavabın nə zaman çıxacağını bilmirik”. Həkim Əziz Mərdiyev ”Report”a bildirib ki, o, xəstəni əməliyyat etməyib: ”Əməliyyat otağına girdim ki, xəstə qaralıb, narkoz stolunda ölüb. Mən heç bir müdaxilə etməmişəm. Narkozdan sonra trombdan vəfat edib. Meyit ekspertiza tərəfindən müayinə olunub. Ölüm səbəbini onlar dəqiqləşdirəcək”.

**ADP sədri, həkim Sərdar Cəlaloğlu bu barədə ”Şərq”ə danışıb:** ”Həddindən çox narkoz veriləndə bədbəxt hadisələrin baş verməsi istisna deyil. Amma narkoz tromba səbəb olmur. Trombla nəticələnən konkret hallar var. Odur ki, məsələ ciddi araşdırılmalıdır”.

**Kənan**

# Onlayn satış yarmarkası da işləyəcək

## *Bütün vətəndaşlara qurbanlıq kəsmək üçün şərait yaradılacaq*




Yaxınlaşmaqda olan Qurban bayramı ilə əlaqədar 3 qurum - Kənd Təsərrüfatı Nazirliyi, Qida Təhlükəsizliyi Agentliyi və Qafqaz Müsəlmanları İdarəsi Qazılar Şurası məlumat yayıb. Kənd Təsərrüfatı Nazirliyi və Qida Təhlükəsizliyi Agentliyi Qurban bayramı günlərində heyvanların satışı və kəsimi xidmətləri barədə məlumat verərək bildirir ki, 88 ünvanda qurbanlıq heyvanların satışı və kəsimi xidməti təşkil oluancaq.

Bu ünvanlardan 53-də həm kəsim, həm satış, 17-də qurbanlıq heyvanların satışı, 18-də isə yalnız heyvan kəsimi xidmətləri təklif olunacaq. Ünvanların çoxluğu Qurban bayramı günlərində qurbanlıq heyvan kəsimi və satışının kütləvi şəkildə toplaşmadan rahat həyata keçirilməsi məqsədi daşıyır. Bu satış məntəqələrində baytarlıq nəzarətindən keçmiş və sanitar-gigiyenik tələblər gözlənilməklə kəsilmiş qurbanlıq heyvanlar sifarişçilərə təqdim olunacaq. Bununla yanaşı, regionlarda Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi ilə razılaşdırılmaqla səyyar heyvan kəsimi çadırları quraşdırılaraq qurbanlıq heyvanların baytarlıq nəzarəti altında kəsimi və satışı həyata keçiriləcək. Kənd Təsərrüfatı Nazirliyi tərəfindən ”Kənddən şəhərə” layihəsi çərçivəsində Qurban bayramı günlərində vətəndaşların seçim imkanlarını artırmaq, dünyada və ölkəmizdə mövcud olan koronavirus pandemiyası zamanı vətəndaşların sıx toplaşmasının qarşısını almaq və onların sağlamlıqlarının qorunmasına xidmət etmək məqsədilə qurbanlıq qoyunların onlayn satış yarmarkası da təşkil olunacaq. Vətəndaşlar onlayn qaydada sifariş etdikləri qurbanlıqları Bakı, Abşeron və Sumqayıt ərazisində 7 ünvandan götürə biləcəklər. Qurbanlıq heyvanların onlayn şəkildə sifarişinin həyata keçirilməsi üçün satış portalı 16 iyul tarixindən etibarən vətəndaşların istifadəsinə veriləcək. Ölkə ərazisində fəaliyyət göstərən kifayət qədər soyuducu infrastrukturuna malik ticarət şəbəkələri tərəfindən əvvəlcədən qəbul olunmuş sifarişlərə uyğun bayram günlərində qurbanlıq heyvanların kəsilməsi və ətinin vətəndaşlara çatdırılması nəzərdə tutulub. Bununla bağlı həmin satış şəbəkələri tərəfindən bayrama bir neçə gün qalmış əhaliyə ətraflı məlumatlar veriləcək. Vətəndaşlar bu ticarət şəbəkələrinin ünvanları və əlavə məlumatları www.afsa.gov.az/uploads/satish.pdf linkə daxil olmaqla əldə edə bilər. Vətəndaşlar bayram günlərində saat 08:00-dan 20:00-dək qurbanlıq heyvanları satmaq, almaq və ya kəsdirmək üçün yuxarıda qeyd edilən xidmətlərdən yararlana bilər.

Vətəndaşlara tövsiyə edilir ki, pandemiya şəraitini və karantin qaydalarını nəzərə alaraq bayramdan bir neçə gün əvvəl qurbanlıq heyvanları onlayn şəkildə sifariş etsinlər, həmçinin ticarət şəbəkələrinə əvvəlcədən müraciət edərək, baytarlıq nəzarətindən keçmiş və bayram günlərində kəsilmiş sağlam qurbanlıq heyvan cəmdəklərini əldə etsinlər. Qurban bayramının bu qaydalarla həyata keçirilməsi insanların bayramı təhlükəsiz və sağlam şəraitdə qeyd etmələrinə, habelə heyvan kəsimi fəaliyyətinin tənzimlənməsi ilə bağlı mövcud qanunvericiliyin icrasını təmin etməyə, yarana biləcək pərakəndəliyin aradan qaldırılmasına imkan verəcək.

QMİ Qazılar Şurasının fətvasında da bildirilir ki, islam dinində qurban kəsmək əsasən Məkkədə zəvvarlara vacibdir. Digər yerlərdə isə imkanı olan adamların qurban kəsmələri sünnət, məqbul, bəyənilən, sahibinə savab qazandıran əməl hesab olunur. Qurban ətini fəqir və kasıb ailələrə paylamaq böyük savabdır. Şəriət qaydalarına görə, qurban kəsilən heyvan sağlam və kəsimə yararlı olmalıdır. Xəstə, arıq və qüsurlu heyvanlar qurbanlığa münasib sayılmır. Qurban qoyun, keçi, öküz, inək və dəvə ola bilər. Adətən müəyyən yaş həddinə çatmış heyvanlar kəsilir. Keçi və qoyunun yaşı bir ilə yaxın, öküz və inək bir və ya iki ildən artıq, dəvənin isə beş ili tamam olmalıdır.

Qeyd edək ki, ölkəmizdə islam dini möhkəm əsaslara malik olsa da, qurbanlıq ətin bölünməsi qaydalarını bilməyənlər hələ də var. Qazılar Şurası xatırladır ki, dini qaydaya görə qurbanlıq əsasən üç hissəyə bölünür: bir hissəni qurban sahibi özünə götürə bilər, digər hissə fəqir və kasıb ailələrə, üçüncü hissəsinin isə hədiyyə kimi qohum-əqrəbaya paylanması tövsiyə olunur. Qurbanlıq heyvanın üzü qibləyə uzadılaraq, Qurban niyyəti ilə Allahın adı çəkilərək kəsilməsi vacibdir. Tövsiyə edilir ki, müqəddəs bayram günlərində qurbanlıqların kəsilməsi baytarlıq və sanitariya qaydalarına ciddi əməl olunmaqla münasib, dövlət tərəfindən xüsusi ayrılmış yerlərdə icra edilsin. Qurban kəsimləri Qida Təhlükəsizliyi Agentliyinin paytaxt Bakı və onun ətrafı, habelə ölkə bölgələri üzrə xüsusi ayırdığı məkanlarda şəriət qaydalarına uyğun şəkildə din xadimlərinin nəzarəti ilə həyata keçirilsə yaxşıdır. Kəsim məntəqələrində şəriət qaydaları ilə əlaqədar ortaya çıxa biləcək hansısa məsələlərlə bağlı QMİ-nin yerlərdəki nümayəndələrinə müraciət oluna bilər. Həmin məkanlarda fərdi qaydada qurban kəsmək istəyənlər üçün də şərait yaradılacaq.

**Məlahət Rzayeva**

# Universitetlərdən artıq çağırış səsləri eşidilir




*Dərslər ənənəvi qaydada olacaqsa bütün tələbələrdən pasport tələb olunacaq*

Avropada ali təhsil müəssisələri yeni tədris ilindən ənənəvi təhsilə başlamaq üçün tələbələrdən koronavirus əleyhinə peyvənd olunmalarını tələb edib. Həmçinin, Türkiyənin Kadir Has və Marmara Universiteti də tələbələrinə vaksin olunmağı tövsiyə edib. 75 min tələbəsi olan Marmara Universitetinin verdiyi açıqlamada, bildirilir ki, 2021-2022 tədris ilinin payız semestrində üz-üzə təhsilə keçmək üçün peyvəndlənmə vacibdir.

Kadir Has Universitetinin tələbələrinə göndərildiyi iddia edilən sosial mediada paylaşılan e-poçtda isə bildirilib ki, universitetdə QR kod oxutma sistemi yerləşdiriləcək və kimsənin iki doza vaksin olmadan kampusa girməsinə icazə verilməyəcək. Kaliforniya Universiteti (Berkli də daxil olmaqla 10 kampus daxildir) və ABŞ-da olan 500 universitet isə tələbə, əməkdaşlar üçün vaksini məcburi edib. İstisna ancaq əks göstərişi olanlara və dini əqidəsinə görə vaksin edilməyənlərə şamil ediləcək. Onlara isə universitetə daxil olmaq üçün həftədə iki dəfə testdən keçməklə xüsusi qayda müəyyən ediləcək. Mütəxəssislər hesab edirlər ki, bununla yenidən ali təhsil müəssisələrində ənənəvi təhsilə qayıdıla bilər.

**Mövzu ilə bağlı təhsil eksperti Elçin Əfəndi "Şərq"ə açıqlamasında bildirib ki, Avropa ölkələrində, eyni zamanda Amerika Birləşmiş Ştatlarında artıq dərslərin ənənəvi qaydada başlanılması əsas götürülərək tələbələrdən koronavirusla bağlı peyvənd olunmaları haqqında müvafiq olaraq sənədlər tələb olunur. Təhsil eksperti qeyd edib ki, bizim ölkəmizdə də təbii ki, bu proses həyata keçiriləcək:** "Artıq bununla bağlı bir neçə universitet, o cümlədən Azərbaycan Dövlət İqtisadiyyat Universiteti artıq məlumat verib. Tələbələrin "Covid-19" əleyhinə pasportunun olması, yəni vaksinasiyadan keçməsi ilə bağlı sənədin olması artıq bir növ zərurətə çevrilir. Düşünürəm ki, dərslər sentyabr ayının 15-dən ənənəvi qaydada başlanacaqsa, bütün ali təhsil müəssisələrində tələbələrdən həmin pasportun tələbi mümkün olacaq. Yəni dərslər ənənəvi qaydada olacaqsa, o zaman hər kəsdən vaksinasiya olunması tələb olunacaq. Əslində vaksinasiyanın könüllülük prinsipində həll edilməsi bildirilmişdi. Amma bu kimi hallar heç də könüllülük əsasında vaksinasiyanın həyata keçirilməsini göstərmir. Əslində burda məqsəd bundan ibarətdir ki, əgər biz dərslərin ənənəvi qaydada olmasını və yaxud da əvvəlki həyata qayıtmağımızı istəyiriksə, hər kəs vaksinasiya olunmalıdır. Bu məsələyə bu məntiqlə yanaşılmalıdır. Həm dövlət, həm də özəl ali təhsil müəssisələrində hamıdan "Covid-19" pasportu tələb olunacaq. Həmçinin, kolleclərdə də bu kimi tələblər böyük ehtimalla olacaq".

**Aynurə Pənahqızı**

## Nəticələr 2 həftəyə məlum olacaq

III ixtisas qrupu üzrə ali təhsil müəssisələrinə qəbul imtahanı keçirilib



**Dünən Dövlət İmtahan Mərkəzi tərəfindən III ixtisas qrupu üzrə ali təhsil müəssisələrinə qəbul imtahanı keçirilib. DİM-dən verilən məlumata görə, imtahan binasına daxil olan iştirakçıların məsafədən ölçə bilən elektron termometrlə bədən hərarətləri yoxlanılıb, zəruri dezinfeksiyaedici vasitələrdən istifadə olunub.**

İştirakçıların bədən hərarəti normaya uyğun olub. 5 nəfərdə mobil telefon aşkarlandığı üçün imtahandan xaric olunub. İmtahan keçirilən şəhər və rayonlarda ümumilikdə 93 imtahan binası, 1607 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 93 ümumi imtahan rəhbəri, 264 imtahan rəhbəri, 2101 nəzarətçi-müəllim, 223 buraxılış rejimi əməkdaşı, 93 bina nümayəndəsi cəlb olunub. İmtahan prosesinin idarə olunması üçün DİM-də operativ qərargah fəaliyyət göstərib, müntəzəm olaraq imtahanın keçirildiyi binalarla əlaqə saxlanılıb və imtahanın gedişi nəzarətdə olub. Bütün binalarda imtahan təlimata uyğun şəkildə keçirilib, iştirakçılara öz bilik səviyyələrini nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb. Mərkəz tərəfindən pandemiya şəraitinin tələblərinə əsasən iştirakçıların yalnız tibbi maska ilə imtahan binasına daxil olmasına icazə verilib. İmtahan heyəti müvafiq qoruyucu vasitələrlə (əlcək, üz siperi, tibbi maska) təmin olunub. İmtahanda istifadə olunmuş qapalı və kodlaşdırıla bilən açıq tipli test tapşırıqlarının doğru cavab etalonları yaxın saatlarda Mərkəzin saytına və sosial şəbəkə hesablarına yerləşdiriləcək. İyulun 15-dən etibarən isə DİM-də imtahan protokolları və materialların emalına başlanılacaq. İmtahanlarda istifadə olunan açıq tipli tapşırıqların yoxlanılması uzun müddət tələb etdiyindən nəticələrin yaxın 2 həftə ərzində elan olunması nəzərdə tutulur. Dövlət İmtahan Mərkəzi tərəfindən ali təhsil müəssisələrinə qəbul olmaq üçün III ixtisas qrupu üzrə keçirilən imtahanda istifadə olunan test tapşırıqlarının düzgün cavabları açıqlanıb.

**Aynurə**

## Dünya bazarında dolların dəyəri möhkəmlənir

Məzənnəyə sürətli vaksinasiya da təsir göstərib



**"Dünya bazarında ABŞ dolları əsas valyutalara nisbətən möhkəmlənməkdə davam edir. Son 1 ayda dollar avroya nisbətən 4 faizə yaxın dəyər qazanıb".**

*Bu sözləri Milli Məclisin deputatı, iqtisadçı-ekspert Vüqar Bayramov söyləyib.* Onun sözlərinə görə, birjalarda dollar Avropa pulu daxil olmaqla, əksər səbət valyutalarına nisbətən son bir ayın ən yüksək artımı ilə tamamlayıb: "ABŞ dollarındakı artımlar Birləşmiş Ştatlar iqtisadiyyatı ilə bağlı pozitiv xəbərlər və proqnozlar ilə bağlı olmaqla yanaşı texnoloji şirkətlərin səhmlərinin dəyərinin yüksəlməsi, valyuta və qiymətli kağızlar bazarı vasitəsi ilə istehlak mallar indeksi göstəriciləri ilə əlaqələndirilir. Digər tərəfdən, ABŞ-da sürətli vaksinasiya da dolların məzənnəsinə təsir göstərir. 335 milyon dozanın bölüşdürüldüyü Birləşmiş Ştatlarda əhalinin yarıdan çoxu artıq vaksinasiya prosesindən keçib".

**Dolların möhkəmlənməsinin bir sıra starteji məhsullar bazarına da təsirsiz ötüşmədiyini deyən deputat qeyd edib ki, son 1 ayda dünya bazarında qızılın qiyməti 2.8 faiz ucuzlaşıb:** "Dolların dünya bazarında möhkəmlənməsi fonunda region ölkələrinin bazarında ciddi volatillik müşahidə olunmasa da, qonşu Rusiyada rubl son 1 ayda 3 faizə yaxın dəyər itirib. Azərbaycanda üzən valyuta məzənnəsinə tam keçirilmədiyi üçün manatın məzənnəsi yenə də birbaşa Mərkəzi Bankın mövqeyindən asılıdır. Ölkəyə daxil olan valyutada əsas paya malik olan neftin dünya bazar qiyməti məqbul səviyyədədir".

Hazırda 1 barel Brent markalı neftin dünya bazarında 76 dollardan baha satıldığını diqqətə çatdıran millət vəkili vurğulayıb ki, 2021-ci il dövlət büdcəsində neftin qiyməti hər barel üçün 40 dollar nəzərdə tutulsa da, qlobal vaksinasiya səbəbindən enerji bazarında tələbin artması müşahidə olundu: "Qlobal bazarlarda yeni sıçrayışlar risklərini nəzərə aldıqda, uzunmüddətli dövr üçün liberal valyuta bazarı daha sığortalanmış hesab olunur".

**Aynurə**

# Yerli jurnalistləri qınamaq diletantlıqdır

*Azərbaycanda hərbi jurnalistikanın vəziyyəti deyildiyi kimi o qədər də boz rəngdə deyil*




Sentyabrın 27-dən başlayan hərbi əməliyyatlar jurnalistikanın spesifik istiqamətini-hərbi jurnalistikanı xeyli aktuallaşdırdı. Əslində bu sahə bizə o qədər də uzaq sahə deyil. Qarabağ savaşının ilk mərhələsində Çingiz Mustafayev, Seyidağa Mövsümlü və digər cəsarətli jurnalistlərimiz, reportyorlarımız ən qaynar nöqtələrdə işləyiblər.

Onlar ermənilər tərəfindən törədilən müharibə cinayətlərinin həm yerli, həm də dünya ictimaiyyətinə çatdırılmasında böyük rol oynayıblar. Sonrakı mərhələdə - uzun sürən atəşkəs dövründə Azərbaycan mediasında hərbi jurnalistika, müharibələrin işıqlandırılması qaydaları və vərdişləri inkişaf etmədi və ya az inkişaf etdi.

Lakin 44 günlük Vətən savaşında bu sahənin nə qədər vacib olduğunu bir daha gördük və anladıq. Hadisələri ön xətdə izləyən və xalqı məlumatlandıran xeyli jurnalistimiz oldu. Ancaq ölkəmizdə hərbi jurnalistikanın lazımi səviyyədə inkişaf etmədiyini düşünənlər də var.

**İkinci Qarabağ savaşının iştirakçısı, jurnalist, siyasi şərhçi Aqşin Kərimov "Şərq"ə bildirib ki, Azərbaycanda hərbi jurnalistikanın vəziyyəti deyildiyi kimi o qədər də boz rəngdə deyil:** "Çoxu ittihamı dilə gətirərkən arqument ortaya qoya bilmir - nə səhvdir, nə düzdür. Küyə gedib "Azərbaycanda hərbi jurnalistika" yoxdur demək isə diletantlıqdır. Var, amma inkişafına və təkmilləşməsinə ehtiyac duyulur. Hərbi jurnalistika hərbi biliklər də tələb edir, bu, informasiyanı tez və düzgün qavramaqda əsas meyarlardan biridir. Bu yaxınlarda müharibə zamanı xarici telekanalların birinin əməkdaşının Cəbrayıldan çəkdiyi görüntülərə baxırdım, aşkar şəkildə dislokasiya yeri, texnikaların hara yerləşdirilməsi göstərilir. Ancaq bəziləri yerli jurnalistlərə pataloji nifrətindən və ümumiyyətlə, hərbidən başı çıxmadığı üçün həmin kanalın əməkdaşına peşəkar deyir, yerli jurnalistləri isə qınayır. Halbuki, son zamanlar fikir verirəm, Azərbaycanın hərbi jurnalistika sahəsində fəaliyyət göstərən reportyorları elə səhvlərə yol vermirlər, çəkilişlər də elə məkanda aparılır ki, orada koordinatı aşkarlamaq çətindir. Təbii ki, bunu etməyənlər də var, amma bu, hərbi jurnalistikamızın qara rənglərdən ibarət olduğunun göstəricisi deyil. Bəziləri isə ümumiyyətlə bildikləri şeylərdən danışsa yaxşıdır".

**Yeganə Bayramova**

# “Qazi toyuna təmənnasız getmək alqışalayiq əməldir”



*Flora Kərimova: “Ancaq bunu minnətə çevirib, qaxınc etmək insanın cılızlığı, mədəniyyətinin əskikliyidir”*

Xalq artisti Flora Kərimova müğənnilərə irad bildirib. O deyib ki, bəzi ifaçılar qazilərin, şəhid ailələrinin xoş günlərinə təmənnasız gedib, onu reklam edirlər. Sənətkarın açıqlamasına Nüşabə Musayevadan cavab gecikməyib. Son zamanlar qazi toylarına təmənnasız gedən ifaçı instaqram profilində bunları yazıb:

”Flora xanım deyirsiniz ki, utanmırsınız? Nədən və niyə utanım? Bunun reklam olduğunu düşünürsünüzsə, fikrinizə hörmətlə yanaşıram. Lakin pismi reklamdır? Siz də zamanında bu işləri görüb təbliğ etsəydiniz, indi bütün ifaçılar mənə qoşulardı”.

**”Şərq” xəbər verir ki, F.Kərimova N.Musayevanın sözlərinə münasibət bildirib:**

”Nüşabə xanım, salam, tanış olmağıma məmnunam. Nə instaqramda izləyicinizəm, nə də sizinlə şəxsi tanışlığım olub. Sayğınıza görə, çox sağ olun.

Sadaladığınız şəxslərə (aparıcı Zümrüd Bədəlova və prodüser Tarix Əliyevi nəzərdə tutur - red) acığınız varsa, mənim buna nə aidiyyətim?! Ünvanladığınız suala cavab verirəm. Etiraflarınıza bənzər, nəticə çıxarmayan insanlara çox illər öncə iradımı bildirdim. Təəssüf ki, indiki halda təkrarlanan əməllərə görə kimdəsə nöqsan tutmağa nə səbrim, nə zamanım var. ”Qazi ilə reklam” məsələsinə gəlincə... Sizə ünvanlamadığım irada niyə sahiblənirsiniz? Sizi düşünsəydim, nömrənizi tapıb zəng edərdim. Əmin olun ki, adınızı efirdə hallandırmaqdan belə çəkinməzdim. Ümid edirəm, fikrimi yetərincə aydın çatdırdım.

Ümumiyyətlə, fikirlərimdə özünüzü görərək nəticə çıxardır və səhvinizi düzəltməyə cəhd edirsinizsə, bu artıq qazancınızdır”.

**Sənətkar həmçinin onun haqlı olmadığını düşünən bloger Elçin Lənbəranskidən də söz açıb:** ”Yaşımın ikidə birini hələ yaşamamısız. Bu çağımda belə etdiyim səhvə görə özümdən iki dəfə kiçik birisindən üzr istəyəcək qədər təkəbbürdən uzağam. Yetər ki, haqlı olsun. Qazi toyuna getmək, təmənnasız iştirak etmək alqışalayiq əməldir. Amma borclu olduğu halda bunu minnətə çevirib öz kiçik mənafeyinə uyğun qazilərə qaxınc etmək, millətə özünü yaxşı sırımaq xatirinə gündəmə çevirmək insanın cılızlığı, mədəniyyətinin əskikliyidir. Bunu başa düşməyəcək qədər sizi düşüncəsiz hesab etmirəm. Lakin bu şəraitdə sizin xətrinizə nə dəydi və məni ”düzgün demir” deyərək nədə günahlandırdığınızı anlamadım. Mövzuya olan iradımdan başqa bir problemə keçid edərək özünüzü daha da haqlı göstərməyiniz haqsızlığınızın sübutudur. ”Sənin məmləkətin” deyə xitab etdiyiniz məmləkətdə tək mən yaşamıram. Mövqeyim heç bir zaman dəyişmədi! Hətta düşmənlərim tərəfindən başıma qaxınc ediləndə belə yaşadığım mühitin qəddarlığına baş əymədim! Haqlı olduğum yolu çoxunun getdiyi cığırlara dəyişmədim. Vaxtın dəbinə qurban vermədim! İndi düşünün, haqqınız varmı mənə bir söz deməyə? Amma mənə sənətkar olduğuma görə, deyə bilmədiyiniz bir sözünüz, sualınız olsa, nömrəm sizdə var. Zənginizi açmasam, bağ evimin də yerini tanıyırsınız. Təkrar qonağım olarsız, ”nə var burada?!” dediyinizdə nə olduğunu sizə xırdalayaram”.

**F.Kərimova sonda ona irad bildirənlərdən də danışıb:** ”İllər öncə 11 min şəhidi, 50 min qazisi, 4000-dən çox itkini olan məğlub bir ölkənin xalq artisti idim. Təəssüf ki, bu faciəni indi çoxları unudub. Mənim isə yaddaşım hələ də qan ağlayır. Nə ”Xocalı”nı unutmuşam, nə də əsirlikdə olan qız-gəlinlərimizi. İndi isə qalib bir dövlətin sənətkarıyam. Sizdən fərqim ondadır ki, o yaranı 27 il ürəyimdə daşımışam. Bu gün əməllərimə görə sizdən daha çox qürrələnməyə haqqım çatır. Bununla belə şadlana bilmirəm. O illərdə populizmdən uzaq nə indiki kimi şəhidlər dəfn olunurdu, nə də qazilər yada düşürdü. Qazi qazidir, fərqi varmı ya indi, ya 25 il öncə? Bu illər ərzində bir qazi, bir şəhid övladı deyə bilməz ki, Floranı məclisə çağırdım, gəlmədi. O zaman nə instaqram var idi, nə alternativ vasitələr. Efir qadağası 25 il davam edən biri idim. Bunudamı unutdunuz? Məndə o ”əzmkarlıq” yox idi ki, bu əməllərimi dilə gətirim, gündəm edim. Çox şükür edirəm ki, yaradan həmin xisləti mənə rəva bilmədi. ”Sən niyə toylara getmirsən” sualını ünvanlayanlar, məndən nəsə tələb edənin ən azı yaşımın yarısı qədər yaşı olub, yaşadığımın yüzdə birini yaşamalı və bu torpaq üçün etdiyimin birini edən olmalıdır. Səksən yaşımda hər nəfəs alanda tanrının lütfü ilə nə vaxtsa, tapşırılacağım torpağımda yaşadığım hər saniyəmə şükür edirəm. Ən zalımınız qanı qanımdan, canı canımdan olan vətəndaşımdır. Sizi daha xoşbəxt görmək ümidilə tanrıya ismarlayıram”.

**Samirə**

## Məleykə Əsədova gileyləndi

“Bir evim var, onu da sata bilmirəm”



**Aktrisa Məleykə Əsədova ”Üzə düz” proqramında bir sıra açıqlamalar verib.**

”Şərq”in məlumatına görə, o, pandemiya dövründə istirahət etmədiyini söyləyib:

”Mən də aktrisayam, lakin işləmədən oturmamışam. Şeirlər, poemalar yazmışam. Gecə-gündüz çalışırdım. Efirlərə təmənnasız gedib çıxışlar edirdik. Allah mənə bu istedadı veribsə, danışmalıyam. Azərbaycanın gözəlliyini vəsf etməliyəm, uğurlarını dilə gətirməliyəm. Şeirlərimlə savaşıram. Sənət adamlarına zamanında qiymət vermək lazımdır. Kimsə 50-60 il səhnədə ola bilər. Mənim də obrazlarımı dəyərləndirin. Prezident İlham Əliyevə tanrıdan can sağlığı diləyirəm. Onun tərəfindən çox aktyorumuz mənzillə təmin olunub, mükafatlandırılıb. Bunları da demək lazımdır. Zamanında Hökumə Qurbanovanın yaratdığı obrazları indi mən səhnədə canlandırıram. Barmaqla sayılacaq qədər aktyor var. Onların əziyyətini niyə də görməyək? Aktyorlar fədakardırlar. Mən səhnədən başqa iş bacarmıram, biznes bilmirəm. Bir evim var, onu da sata bilmədim. Satsam, pulunu lazımi yerlərə xərcləyəcəkdim. Biz bunları söyləməməliyik. Aktrisa ucada olmalıdır. Məni tamaşalarımla görməlidirlər, qəlbimi küsdürməməlidirlər”.

**Samirə**

## Cabbar Musayev oğluna toy edib



**Müğənni Cabbar Musayevin ailəsində xoş gün olub.**

”Şərq” xəbər verir ki, o, oğluna toy edib. Bu barədə onun sənət dostu Könül Kərimova məlumat yayıb. Sənətçi həmkarının oğlunun toyundan foto paylaşıb.

**Samirə**

“Orada oturmusan, yetənə yetirsən, yetməyənə daş atırsan"

# “Biz artıq alışmışıq”

*Günel Ələkbərova Rəqsanəyə sərt cavab verdi*

Müğənnilər Rəqsanə İsmayılova və Günel Ələkbərova (pişik Günel) arasındakı qalmaqal səngimək bilmir.

Bir müddət öncə R.İsmayılova Moskvaya üz tutan həmkarlarını sərt tənqid edib. O, bəzi ifaçılara toydan sonra evə gedin, deyib. Onların evli ola-ola pis işlərlə məşğul olduqlarını söyləyib. Müğənninin bu açıqlamasına G.Ələkbərova ”Hamı küçədə qalıb, tək ev qızı, ev gəlini sənsən?” deyə irad bildirib.

R.İsmayılova ”ATV Maqazin onlarla” proqramının ”33 sual” rubrikasında Günelin mövzu haqda danışmasını yersiz hesab edib. Həmçinin onunla illər öncə ”Maşın şou”da əlbəyaxa dalaşdığını xüsusi vurğulayıb. G.Ələkbərovadan Rəqsanəyə cavab gecikməyib.

**”Şərq” xəbər verir ki, o, instaqram profilində paylaşdığı videoda R.İsmayılovadan danışıb:**

”Onu dinlədim, çox güldüm. Təəccübləndiyim məqamlar da oldu. Xəyal gücü, fantaziyalarının fışqırması məni heyrətləndirdi. Səndən incimirəm, çünki uman yerdən küsərlər. Biz artıq alışmışıq. Orada oturmusan, yetənə yetirsən, yetməyənə daş atırsan. Beləcə də özünü reklam edib gündəmdə qalmağı bacarırsan. ”Maşın şou”dan, uçan qablardan danışdın. Məni insanlara ikiüzlü kimi tanıtdın. Dedin ki, Günel səhər bizimlə idi, axşam yox. Danışanda kəlmələrinə fikir ver! Bilirsən ki, efirdə danışırsan, tamaşaçılar izləyir, bir az səliqəli ol. Həmin proqramda elə bir şey olsa, mənə uduzmazdın. İzləyicinin gözü tərəzidir, bilirdilər ki, hədəfin mənəm. Ona görə səni uzaqlaşdırdılar. Qab-qacaq atdığımız dava olub. Amma səninlə mənim aramda yox. Başqa bir insanla qarşılıqlı həmin olayı yaşamışam. Sən də maşının ətrafında dayanan iştirakçılardan biri idin. Bunun necə mənimlə yaşadığını söyləyirsən? Arxivdə kadrlar var, iştirakçılar da görüb. Deyirsən ki, Murad Dadaşov, Röya şahiddir. Günorta vaxtı dalaşmışdım, M.Dadaşov yox idi. Söyləyirsən ki, Günelin danışması yersizdir. Hər zaman yerində danışıram. Bir üzüm var, yaltaqlıqla, yalanla işim olmaz. Eşitdim ki, orada 100 min dollarlıq söhbət həll edirsən. Belə getsə, sənə ad da verərlər. Əslində pis qız deyilsən”.



**Samirə**

# Heç bir yol xərci ödəmədi

## Amma ölkənin 81 bölgəsini gəzdi



(Əvvəli səh: 16-da)

**Kəndlərdə, düzənlikdə, meşə qoynunda... hara gözünə-könlünə xoş gəlibsə, çadır qurub, təbiətlə başbaşa qalıb. Əlinə keçəndən, yemək hazırlayıb, tapdığı təbii ərzaqlarla, meyvə-tərəvəzlə keçinib.**

Kəndlərdə, qəsəbələrdə Kadir Gezmişi qonaq edənlər, yemək süfrəsinə dəvət edənlər də olub. Gəncin ölkəni səyahətə çıxmağa təhrik edən səbəb pandemiya olub. Gezmiş İstanbulda yaşadığı mənzildən bel çantası, çadır və bəzi gərəkli əşyaları götürüb yola çıxıb. Səyahətə Mərmərə bölgəsindən başlayan Gezmiş yol xərci ödəmədən 81 bölgəni gəzib. 30 min kilometrlik yol qət edən Gezmiş, insanlar pandemiya qorxusundan evdə, 4 divar arasında qaldığı vaxtlarda sərbəst şəkildə bir yerdən digərinə səyahət edib. Gezmişin son dayanacağı Tunceli olub. Şəhər mərkəzində bir avtomobilə minən gənc Türkiyənin ən böyük milli parklarından biri - Munzur Vadisinə gəlib. Və burada çadır quraraq bir neçə gün təbiətin, sərin havanın kefini çıxarıb, Munzur çayında üzüb. "Daxilimdə təbiətə vurğunluq vardı, bunu təcrübədən keçirmək istədim. 81 bölgəni gəzərək hər bölgədə bir ailə ilə tanış oldum, daxilimdəki iradə və özünə inamı artırdım", deyən K.Gezmiş ailəsi və dostlarının bu işi bacaracağına inanmadıqlarını, amma sosial media üzərindən paylaşımlarını gördükcə, sevindiklərini və onu təqdir etməyə başladıqlarını söyləyib. "İndi hər kəs məni dəstəkləyir, böyük ilgi görürəm. İnsanlardan istəyim budur ki, bu yolda, bu cığırda bir səyahətçinin ayaq izlərinin olduğunu unutmasınlar" deyən K.Gezmiş "avtostop"la yola davam etməyin çox çətin olduğunu, bəzən saatlarda yolda qala bilməyi, gecələr yol kənarında dayanıb bir avtomobilin keçməsini gözləməyi göz almaq gərəkdiyini deyib. K.Gezmiş demək olar ilin 4 fəslini səyahətdə olub. Qızmar istilərdə, şaxtalı günlərdə, yağışlı havalarda... Amma səbirlə yoluna davam edib. İndi isə hədəfi Avropadır: "Çox gəzdim, qaçdım, addımladım. Günəşdə yandım, şaxtada dondum, amma bacardım. İndi isə hədəfim Avropadır".

**Məlahət**

# Bütün qüvvələr səfərbər olunub

## Körpə balinanın anasını axtarırlar





(Əvvəli səh: 16-da)

**"Toa" hazırda dəniz kənarı ətrafında iki dayaq arasında inşa edilmiş müvəqqəti bir kotecdə saxlanılır. Heyvan 4 saatdan bir boru ilə qidalanır və dənizə qayıtmasının qarşısını almaq üçün xüsusi paltar geymiş könüllülər tərəfindən gecə-gündüz izlənir.**

L.Angus körpə balinanın gələcəyi ilə bağlı nikbin olduğunu, ancaq Yeni Zelandiyada heyvana uzun müddət baxa biləcək bir obyekt olmadığını deyib: "Ona görə də balinanın anasının ən qısa zamanda tapılması vacibdir. "Toa" çox stresli bir təcrübə yaşadı, amma indi sağlamlığı yaxşı görünür. "Qatil balinalar" olduqca sərt heyvanlardır. "Toa"nı yavaş-yavaş yeməyə məcbur edirik, buna görə sağlamlığında yaxşı əlamətlər var".

**Yeganə**

**Minnətdarlıq!**

Bakı 3 saylı "ASAN xidmət"in əməkdaşları məni gülərüzlə qarşıladılar. Mən Səbinə Quliyeva və Nəzakət Əsədovaya öz minnətdarlığımı bildirirəm. Sağ olsunlar.

**Fazilə Məmmədova**



# 6 ay əvvəl yerləşiblər

## Arda Turanın xanımı lüks villasının qapılarını açdı

(Əvvəli səh: 16-da)

**Uşaqlar toxunanda əzimməsinlər deyə oturacaqların kənarını yuvarlaq etmişik". Yemək masası 12 nəfərlikdir.**

Yaz aylarında bağçada əyləşmək üçün şərait var. Mətbəxdə bar kətilləri qoyulub, lakin Aslıhan Turan onlardan daha rahat kətillərdə əyləşməyi sevdiyini deyir. Aslıhan Turan həyat yoldaşının evin 3-cü mərtəbəsindəki geyinmə otağını da nümayiş etdirib. Və Arda Turanın geyim otağı üçün çox çalışdığını deyib. Evin birinci mərtəbəsi yetişkin insanlar və qonaqlar üçün, ikinci mərtəbəsi isə uşaqlar üçün münasibdir. "Qalatasaray" kapitanı evin girişinə klubunun loqosuna uyğun aslan heykəli də yerləşdirib. 3 mərtəbəli villanın lifti də var. Lakin Aslıhan Turan liftdən az istifadə etdiklərini deyir. Yataq otağında sakitliyə önəm verən Turan, otağa televizor qoyub-qoymamaqla bağlı hələ ki, qərar verməyib.

**Məlahət**

# Alimlər xərçəngi müalicə edə biləcək

## C vitamini şişlərin böyüməsinin və yayılmasının qarşısını effektiv alır



## Vaksin yaradıcılarından önəmli açıqlamalar

**Onkoloji xəstəliklərin bir çoxunu acqalma və vitamin C terapiyası ilə müalicə etmək barədə təklif irəli sürülüb. Bu cür toksiki olmayan ikili kombinasiya aqressiv tip xərçəng növlərində terapiya ilə yanaşı effektiv ola bilər.**

Bu barədə Cənubi Kaliforniyanın Molekulyar onkologiya İnstitutu və Milan FİRC institutu birgə elmi tədqiqatlarının nəticəsində bildirib.

Əvvəlki tədqiqatlar da sübut etmişdi ki, yüksək dozada vitamin C kimyaterapiya ilə kombinasiyada şiş hüceyrələrinə ikiqat zərbə endirir. Eyni effekti xüsusi müalicəvi acqalma ilə də almaq olar. Alimlər bu iki təklifin birgə xəstələr üzərində necə işlədiyini yoxlamaq qərarına gəlib. Təcrübə siçanlar üzərində aparılıb. (medicina.az)

Nəticələr göstərib ki, dieta, imitasiyalı acqalma və yüksək dozalı C vitamini şişlərin böyüməsinin və yayılmasının qarşısını effektiv alır və xərçəng hüceyrələrini öldürür. Burda əsas açar hüceyrələri "orqanizm ac qalacaq" fikrinə yönəltməkdir. Bu metod KRAS genlərinin mutasiyasına bağlı şiş növlərində işləyir. Bu ağciyər, mədəaltı vəz, bağırsaq, mədə xərçəngidir, hansı ki, müalicə effektiv olmur və xəstələri qısa müddətdə öldürür.


**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**



Baş redaktor: **Akif Aşırlı**

Baş redaktorun ı müavini: **Yusif Nəzərli**

Redaktor: **Ayyət Əhməd**

**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı

**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "**Şərq**"in kompyuter mərkəzində yığılır, səhifələnir və "**Azərbaycan**" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535 **www.sherg.az** e-mail: **sherq-1996@mail.ru**

Ünvan: Mətbuat prospekti, "**Azərbaycan**" nəşriyyatı. **Telefon: 447-32-41 538-44-50, internet 538-44-15, İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611** SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111 Kod 200112 M/H AZ37NABZ01350100000000001944 VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1241



# Uçurumda selfi çəkdirmək istədi

## Fenomen sonunda həyatından oldu

**Qayalıq yerlərdə təhlükəli pozalarla selfi çəkərək instaqramda paylaşan Sofiya Çeunq ağır qəza keçirib.**

"Şərq" xarici mətbuata istinadən xəbər verir ki, instaqram ulduzu Ha Pak Laidə Tsing Dai şəlaləsindən yıxılıb. Sosial media fenomeni Hong Kong xəstəxanasına aparılıb. Lakin həkimlərin bütün müdaxiləsinə baxmayaraq onun həyatını xilas edə bilməyiblər. Sofiyanın itkisinə kədərlənən dostu paylaşım edib. Paylaşımda deyilir: "Daha yaxşı günlərin gələcəyini düşünürdüm. Sənin söhbətlərin üçün hər gün darıxıram. Mən səni həmişə sevəcəm. Gözəl Sofim, rahat ol".

*Qeyd edək ki, Sofiya sosial mediada paylaşmaq üçün uçurumlara və ya təhlükəli qayalara dırmaşaraq həyatını itirən ilk fenomen deyil.*

**Aynurə**

# Ayda 25 gün fasiləsiz yatır

## Xəstəni hətta yuxuda qidalandırırlar



**Hindistanın Naqaur şəhərində yaşayan 42 yaşlı kişi nadir xəstəlikdən əziyyət çəkir. Purkharam adlı şəxsin ayda 25 gün fasiləsiz yatdığı ortaya çıxıb.**

"Şərq" türk mediasına istinadən bildirir ki, Purkharama 23 il əvvəl "ox hipersomniyası" diaqnozu qoyulub.

İlin 300 gününü yatdığı üçün ailəsi Purkharamı yuxuda olarkən çimdirir və yemək verir. Purkharam ayda 25 gün fasiləsiz yatdığına görə sahibi olduğu baqqal mağazasını ayda yalnız 5 gün açır. 42 yaşlı kişi müalicə almasına və həddindən artıq yatmasına baxmayaraq, bədəninin tez yorulduğunu və məhsuldarlığının sıfır olduğunu söyləyib. Onun xəstəliyi ilə əlaqədar şiddətli baş ağrıları da olur.

**Yeganə**

# Ölüm riski var

## Ən çox 50 yaş və yuxarı şəxslər "Delta"ya yoluxur



**Koronavirusun Hindistanda yayılmağa başlayan Delta ştammına artıq Azərbaycanda da rast gəlinib.**

Elm adamları daha ölümcül və təhlükəli variant olan Delta ilə bağlı araşdırma aparıb. Nəticələrə əsasən, sözügedən ştamm hər yaş qrupuna yoluxa bilir. Lakin onun öldürmə nisbəti qismən fərqlidir. İngiltərənin Səhiyyə Nazirliyi "Delta"ya yoluxmuş 100 min nəfər arasında apardığı nəticəyə görə statistika açıqlayıb. (medicina.az)

Belə ki, Delta ştammına 50 yaş və aşağı olan insanlar daha az yoluxur və onun öldürmə qabiliyyəti zəif olur. 50 yaş və yuxarı şəxslər isə məlum varianta daha çox yoluxur və ölüm riski daha çox olur.



# Heç bir yol xərci ödəmədi

## Amma ölkənin 81 bölgəsini gəzdi



**Kadir Gezmiş soyadına tam uyğun həyat sürür. 24 yaşlı gənc cibində sadəcə 800 tl olduğu halda, Türkiyənin 81 bölgəsinə səyahət edib və bir qəpik də xərcləməyib.**



"Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, Kadir Gezmiş səyahətini magistral yollarda "avtostpo" işarəsi ilə avtomobilləri dayandıraraq sürücülərdən onu irəli aparmalarını xahiş edib. Beləcə, hər dəfə bir avtomobildən digərinə transfer edərək, hər dəfə bir sürücüyə xahiş edərək bölgədən bölgəyə keçib, gəzib dolaşıb, təbiət qoynunda yaşayıb.

*(Davamı səh: 15-də)*

**Məlahət**



# Bütün qüvvələr səfərbər olunub

## Körpə balinanın anasını axtarırlar





Təyyarələr havadan müşahidə aparır, könüllülər keşik çəkirlər

**Yeni Zelandiyada insanlar anasına ehtiyacı olan "Toa" adlı körpə "qatil balinası"nı yaşatmaq üçün gecə-gündüz keşik çəkirlər.**

"Şərq" "Ntv.com"a istinadən xəbər verir ki, könüllü şəxslər heyvanın anasını tapmaq üçün Vellinqtonda üzürlər, təyyarələr havadan müşahidələr aparır.

Yeni Zelandiyanın Qoruma Departamentindən verilən məlumata görə, 4 aylıq erkək qatil balina paytaxtın şimalında daşlara dəydikdən sonra rəsmilər tərəfindən həyata qaytarılıb.

"Toa" (Maori dilində "döyüşçü") adlanan 2,5 metr uzunluğundakı heyvan süddən kəsilmədiyi üçün okeanda tək yaşaya bilməz. Qoruma Departamentinin dəniz növləri üzrə məmuru Lan Angus bildirib ki, balina hələ çox kiçik olduğu üçün qarşıda böyük çətinliklər var: "Onu anasına necə qaytaracağımızı düşünməliyik, çünki xüsusilə qidalanmada köməyə ehtiyacı var.

*(Davamı səh: 15-də)*

**Yeganə Bayramova**



# 6 ay əvvəl yerləşiblər

## Arda Turanın xanımı lüks villasının qapılarını açdı

**"Ulduz" futbolçu Arda Turanın həyat yoldaşı, 2 övlad anası Aslıhan Doğan Turan yeni villasının görüntülərini YouTube kanalı üzərindən paylaşıb.**

Evinin hər köşə-bucağını tanıdan Aslıhan Turan "evin yaşandıqca gözəlləşdiyinə inanıram" deyib. "Şərq" Türkiyə mediasına istinadən bildirir ki, Turan ailəsi yeni evlərinə 6 ay əvvəl yerləşib. "Ev turu" salondan başlayır. Evin əsas rəngləri tünddür. Evin böyük bir qismi taxtadandır. Sadə, əşyası az, lakin hər bir detalı yerində bir evdir. "Fərqli şeyləri sevirik. Getdiyimiz, gördüyümüz evlərin, demək olar, hamısı bir-birinə bənzəyir. Biz fərqli bir şey etmək istədik. Salonu bəzəyərkən 2 övladımızı da nəzərə almışıq. Arda ilə əsasən bu salonda zaman keçiririk. Sənət əsərləri toplamağa başlamışıq.

*(Davamı səh: 15-də)*

**Məlahət**